ELŞAD SƏFƏRLİ

# SƏHƏRƏ TƏLƏSƏN QATAR

ŞEİRLƏR VƏ POEMALAR

Bakı. Gənclik. 2009

Az.2
S 49

**S 49. Səfərli E.**
**Səhərə tələsən qatar. Şeirlər və poemalar.**
Gənclik, 2009, 194 səhifə.

Elşad Səfərli 80-ci illərin əvvəllərində ədəbiyyata gələn istedadlı şairlərimizdəndir. "Səhərə tələsən qatar" kitabı şairin indiyə qədər çap olunmuş kitabları sırasında üçüncüsüdür (“Dünya ömür yoludur” ("Gənclik", 1991), "Sözü ürəyində qalan adam" ("Azərbaycan", 1993), “Səhərə tələsən qatar” (“Maarif”, 1996), “Yalnız sevgi” (“Şans”, 1999), “Sabir Rüstəmxanlının fərdi yaradıcılıq üslubu” - monoqrafiya (“Qanun”, 2003), “Şair təkliyə məhkumdu” (“Nurlan”, 2004). Kitab “Maarif” nəşriyyatında 1996-cı ildə nəfis tərtibatla çap edilmişdir. Dərhal da ədəbi ictimaiyyətin, geniş oxucu kütləsinin, xüsusən də ədəbi tənqidin diqqətini cəlb etmiş, haqqında resenziya və məqalələr yazılmışdır. Görkəmli yazıçı Cəmil Əlibəyovun 1999-cu ildə mətbuatda dərc edilmiş məqaləsi də kitab haqqında müsbət rəy kimi çox dəyərlidir. Buna görə də həmin məqalə kitaba ön söz əvəzi kimi daxil edilmişdir. Kirilə əlifbası ilə çap edilən ədəbiyyatların latın qrafikası ilə yenidən nəşri zərurətini və geniş oxucu marağını nəzərə alaraq bu kitabın təkrar nəşr edilməsi məqsədəuyğundur. Dövrün ictimai-siyasi hadisələrinə ciddi münasibət, doğma yurda, torpağa bağlılıq, ana itkisindən doğan ağır kədər, kəşməkəşli insan ömrünün ağrı-acıları, sevinci və səmimi sevgi hissləri bu kitabda gedən şeir və poemaların əsas mövzusunu təşkil edir.

$S\,\frac{4702060202}{M\ 653(07)2009}$ qrifli nəşr

© Maarif, 1996
Təkrar nəşr. © Gənclik, 2009

# ŞEİRİN DƏRD-QƏM QATARI

İstedadlı Azərbaycan şairi Elşad Səfərlinin "Səhərə tələsən qatar" kitabının sərnişinlərinə hövsələli olmağı tövsiyə edərdik. Qatar həyat yolunun çox eniş-yoxuşlarından, atəşlər və buzlaqlar içərisindən keçəcək. Yön aldığı mənzil isə... bu haqda sonra.

Belədir şair taleyi. İlham şairə gizli gəlir və o zaman üzə çıxır ki: şairin dərdi tək öz sinəsinə sığmır. O, bu yükü daşımaq üçün özünə həmdəm axtarır. Və poeziya yolçusu o vaxt özünü tanrının elçiləri – peyğəmbərlər sırasında saya bilər ki, arxaya dönüb baxanda karvan-karvan ümmət görsün. Bu insan ordusu – mürşüdlər yalnız həyatdan həzz almaq istəyənlər deyil, məhəbbət macəralarından əzab çəkənlər də ola bilər, yaşadığı zəmanənin sirlərindən agah olmaq istəyənlər də xalqına üz vermiş bəlalardan çıxış yolu axtaranlar da... Eh, şeir yer kürəsindən böyükdür, onun coğrafiyasının qatlarını saymaqla qurtarmaqmı olar?!

Şairlər böyük oxucu auditoriyası arasında üçüncü görüşdə “Səhərə tələsən qatar”da bunların şahidi olacaqsınız. Qoy şair dostları bu çox ünvanlı həmkarlarına qısqanmasınlar, xoşbəxtlikdən deyil bu qurşun yüklü duyğularla yaşamaq.

Özünü dinləyək:

*Şairlik yüksək əqidədi,*
*Əqidəsindən dönməz şairlər olub,*
*Xaqani, Nəsimi, Füzuli.*

*İradələrini*
*qıra bilməyib bir an*
*Nə hökmdar qorxusu,*
*Nə ağır zaman,*
*Nə də zindan.*

* * *

*Əqidəli şair*
*Zamanla müxalifətdədir,*
*Doğulduğu andan.*
*Əsil şairləri qorxutmur,*
*Nə oğul-uşaq qayğısı,*
*Nə ağır zaman,*
*Nə də zindan!*

Bizim müasirimiz öz harayları ilə əsrin əvvəlinin dərd şairi Məhəmməd Hadini xatırladır və bu da əbəs deyildir ki, bir şeirində o, Hadidən belə bir nümunə gətirir:

*Bu insanlar ki, qardaşdır,*
*Və lakin yad şəklində.*
*Ədavət daima vardır,*
*Məhəbbət ad şəklində.*

Şeirləri siyasi lirika, məhəbbət lirikası boyları ilə cərgələsək Elşadın siyasi lirikası zabitlik zəhmində – zabitəsində, məhəbbət lirikası sıravi əsgər tabeliyində böyüklər yaradır: təbiətə həsr etdiyi misralar, ilk məhəbbət duyğuları, ana-ata məftunluğu – bunlar şair həyatının gülşən bucaqlarıdır, doğrudur, öz poetik vüsəti

ilə heç də axırıncı sırada dayanmır. Elşad bunların hamısını adi insanın gördüyündən, duyduğundan, həzz aldığından, artıq isti rənglərlə, dadlı kəlmələrlə, ətirli çalarlala təqdim edir. Həm də bunlar elə deyilir ki, sənə keçən günləri elə xatırladır ki, onların nisgilini çəkib qəmlənmirsən, qürurlanırsan ki, sən belə gözəl, xürrəmşad, qayğısız... günlər yaşamısan: bulaqların çaldığı saza qulaq asmısan; qarı ovcunda sıxıb, qaynaqlara həyat verən bənövşəli quzeyləri seyr etmisən. Meşənin zirvəsinə çökən buludları "ağbirçək ana" qiyafəsində görmüsən və ilahi məhəbbət pıçıltılarına qulaq vermisən. Təəssüf ki, o zaman bunları qiymətləndirə bilməmisən, indi təzə baxışla ürəyinə yığırsan bu gözəllikləri.

Ancaq biz elə zəmanədə yaşayırıq ki, bu qədim, zəngin, istedadlı ölkə elə bəlalarla üzləşib ki, qədimlikdən ancaq boş qürur, zənginlikdən insafsız təbəqələşmə, istedaddan təbiq edə bilmədiyin imkansızlıq irs qalıb bizə. Birdən-birə şairin gənc, kövrək çiyinlərinə düşən batman-batman yük onu coşdurur, rahatlığını əlindən alır, hamımızı haraylayaraq bütün bunlara qarşı son döyüşlərə səsləyir:

*Yadlıq torpağım yox, - bölüm,*
*Bu son cəngdi, bu son zülüm.*
*Ya "olum" du, ya da "ölüm", -*
*Könlüm başqa yol tanımır.*

* * *

*Bu döyüşdü,*
*duran gəlsin,*
*Düşmənə yas quran gəlsin,*
*Qanı qannan yuyan gəlsin,*
*Könlüm başqa yol tanımır.*

Elşad, bu böyük xalqın, kiçik ölkənin planet qayğılı şair oğlu özünün dərd məmləkətinə mərz-sərhəd qoymur.

*Azadlıq deyənləri zindan,*
*Doğmaları qan çəkəntək,*
*Şair qələmini də çəkər*
*Yer üzünün dərdi, qəmi.*

Gizlətmirəm, böyük qardaş kimi incikliyimi də deyim: Axı, öz dərdimizi çəkib qurtardıq ki! Torpağımızın böyük bir qismi əsirlikdə inləyir; xalqımızın yeddidə bir hissəsi qaraçı həyatı sürür; məğrur azərbaycanlı qadını küçələrdə sədəqə diləyir; alim-müəllim ağır zehni əməyin müqabilində kiminsə əlinə baxır; kasadlıq ucbatından qohum-əqrəba küsülü kimi bir-birindən uzaq qaçır, namus-dəyərini, ismət-abırını itirib... Axı, bunlar bizim özümüzün özümüzə etdiyimiz haqsızlıqlardır, heç düşmənin etdiyindən də az bəla deyil.

Ancaq elə ki, şeirləri oxumağa davam edirsən və aşağıdakı misralara rast gəlib, onları xilaskar kimi qəbul edərək dərdimizə əlac fikrinin ardınca düşürsən, onda şairlə barışmalı olursan.

*Şairin taledən əcəli yoxdur,*
*Şairin əcəli sözündən gəlir.*
*Şairin əcəli haqsızlıqlara,*
*Dözə bilməməyin üzündən gəlir.*

Haqsızlıq – quraq-qurşağın nadir cücərtisi deyil, o ən uzun ömürlü, hər yerdə bitə bilən zəqqütündür, bəşər övladı üçün dəhşətli epidemiyadır. Və indi bizdə – bir cəmiyyətin uçurulduğu, digərinin isə tam bərqərar ol-

madığı ölkədə – siyasi antisanitariyanın, çirkablı münasibət mühitinin tüğyan etdiyi zəmanənin bəhrəsidir. Kitabda bunlara elə diaqnoz qoyulub ki, onları sadalamağa ehtiyac qalmır.

Bədii ümumiləşdirmə, tipikləşdirmə, sənət əməli aparmadan, şairin xronikal ədəbi həllini verdiyi "Qiymət" poeması üzərində bir qədər geniş dayanmaq istərdim. Poemanın leytmotivi təkcə dövrün zillət mərhələlərini, təqib və təzyiqləri şəxsən yaşadığı dövrün qəhrəmanına hüsn-rəğbət bəslədiyi ucbatından yox, indi də, bundan sonra da təqib-təzyiqlərin insanları izləyə biləcəyi ehtimalı üzərində qurulub. Müəyyən bir şəxsə – Azərbaycanın ilk poliqrafiya alimi Şəddad Cəfərova ithaf olunub. Əsərin qəhrəmanı da öz adı, soyadı ilə odur, hadisə də mifik, əfsanəvi təxəyyül məhsulu deyil, bizim günlərin hadisəsi kimi gerçək motivlərlə nəql edilir.

Mən deyə bilmərəm – şair qəhrəmanın başına gətirilən müsibətlərdən təsirlənib, yoxsa bu haqsızlıq macərasını gerçəkləşdirmək üçün haqqında eşitdiyi bu hadisəni seçib.

Mən isə bu hadisəni zalda oturub müşahidə edənlərdən biri olmuşam. Biz qəzetçilərlə peşə qardaşımız poliqrafçılar arasında daim vahidin bölünməz vəhdəti, duyğuları olub. Hətta qəzetçilər barədə belə bir qanadlı söz də dildən-dilə gəzərdi: əgər qətran iyi burnuna dəyməyibsə, o haranın qəzetçisi ola bilər?! Həqiqətən də qətranla işləyənlər, poliqrafiya işçiləri həm qəzetin ilk oxucusu, həm də xeyir-dua verib nəşrin həyat yolunun qapısını açanlardır. Şəddad müəllimə olan qəzetçi sevgisi, hörmət-izzəti həm onun yüksək peşəkarlığı, fəhləlikdən baş direktor vəzifəsinə yüksəlməsi, həm də əsl insan ləyaqəti ilə səciyyələnir.

Bilirsiniz, qəzetçilərin ona məhəbbəti və kiminsə əmri ilə haqsızlıq edib onu vəzifəsindən çıxarmaq istərkən hamılıqla onu müdafiəyə qalxmaları nə ilə bağlı idi? Yuxarıda dediklərimlə bərabər, haqsızlığın hamının gözü qabağında həyasızcasına həmləsi ilə: kimi isə o vəzifədə yerləşdirmək üçün kim isə bayıra atılmalıdır, vəssalam! Bu haqsızlığa qarşı həyəcan və fəryadların ərşə qalxmaq məqamı idi.

Ancaq etiraf edim ki, heyrət onda oldu ki, ləyaqəti ilə tutduğu vəzifədən ləyaqətsizcəsinə kənarlaşdırılandan sonra yad bir diyarda sığınacaq tapdığı və ya işsiz qaldığı vədələrdə də Şəddadın şux qaməti əyilmədi, üzgözündə yurd salmış səmimi gülüşləri, insanı gendən çağıran mehribançılıq əzaları üzərinə duman çökmədi və Şəddad, adəti üzrə taleyin onu məhkum etmək istədiyi hökmü üsyankarlıqla qarşıladı, əyilmədi, tükənməz qabiliyyəti ilə yad diyarda, sonralar öz mühitində də bədii əsər qəhrəmanı olmaq yüksəkliyinə qalxdı.

*O, bir stol itirdi,-*
*Kitab, qəzet nəşrisə,*
*Onun itirdiyindən*
*Onsuz çox şey itirdi.*

* * *

*İtirdiyi stola*
*Qəti heyifslənmədi,*
*Öz alim vüqarını*
*Qorudu dar gündə də...*

Şair etiraz etməsə, mən son misranı belə oxuyardım: kişilik vüqarını qorudu dar gündə də! Alimlik irsi deyil,

kişilik irsidir. Poemada Şəddadın atası, babası da kulaka salınıb, sürgünə göndəriləndə, təqiblərə rast gələndə də zaman küləyinə qarşı inadlı duruş gətirə bilmişdi. Varlı kişinin cah-cəlallı imarətini dağıdıb, izini itirmək istəyərkən də Ananın mərdliyi belə qiyam qaldırmışdı. Bunlar o qaynaqlardır ki, Şəddadlar oradan su içmiş və öz kişilik şəcərələrinə layiq həyat yolu seçmişlər. Şəddad da:

*Öz hörmətli nəslinə*
*Layiqli oğul kimi,*
*Bir az da şöhrət payı*
*Gətirmək istəyirdi...*

Hansı şair-məmursa məddahlıq edəndə, Elşad içindəki odu-alovu bax, belə qatara yığıb səfərə çıxdı.

Bu, çox da böyük olmayan kitabda, xalqın ümumiləşdirilmiş qayğıları ilə barəbər, şairin həyatın müxtəlif zərbələrinə məruz qalmış dostlarının, tanışlarının da kədərini özünə necə dərd elədiyi xüsusi rəğbət doğurur. Elşad, həyat yoldaşını itirmiş Nəriman Həsənzadəyə xitabən deyir: "süfrəndə bir zaman çörək yeyənlər, indi heç halını soruşmur, ustad"; Şəkər Aslanın vaxtı ilə "bölgə şairi" kimi təqdimatına etiraz kimi: "sağ ikən varlığı anılmadı, sonradan tanındı" deyə şair dostunun halına acıyır, görkəmli tarixçi H.Əzimovun tarixin cib dəftərinə, qalın-qalın kitablarla düşmək ləyaqətini qiymətləndirməyənlərə istehza edir, səhhəti hamıya dərd, poeziyası bütün xalqa sevinc olan Məmməd Araz sindromu, ünvansız yaşayanların nisgilini çəkən Fikrət Qocanın, sökük məzarı qədirbilənlərə dərd olmuş xalqın igid oğlu Baba Xəliloğlunun... neçələrinin dərdi "Səhərə tələsən qatar"ın eşalonlarına yüklənmişdir.

Elşad Səfərli şair sözü ilə zirehlənmiş dərd yüklü qatarın lokomotivinin sükanı arxasında dayananda, bu dərdləri sabaha aparmaq istəmədiyindən, bizim hamımızı – hökm-fərman sahiblərini də, adi vətəndaşları da inandırmağa çalışır ki, xoşbəxtliyə qovuşmaq üçün dərdlərə əlac etmək, onları cəmiyyətin həyatından silmək lazımdır. O yolnan getmək lazımdır ki:

*Bir yol ki, haqq özülüdü,*
*O yolun bəndə quludu.*
*Haqq yolu - şair yoludu*
*Könlüm başqa yol tanımır.*

Səfərin uğurlu olsun, cəfakeş şair!

**Cəmil ƏLİBƏYOV**
**yazıçı.**
"Yeni era" qəzeti,
12–19 oktyabr, 1999-cu il.

# HAQQ SƏNİNDİR, AZƏRBAYCAN

## KƏFƏNİM BOYNUMDA YOL GEDİRƏM MƏN

Kəfənim boynumda yol gedirəm mən,
Hardasa bir ölüm gözləyir məni.
Bir maşın qəzası, bir muzdlu qatil,
Bir güllə, bir bıçaq izləyir məni.

Şairin taledən əcəli yoxdu,
Şairin əcəli sözündən gəlir.
Şairin əcəli haqsızlıqlara,
Dözə bilməməyin üzündən gəlir.

Söhbət əqidəli şairdən gedir,
Yaltaq şairlərin amalı boşdu.
Əsil şairlərə haqqın yolunda,
Çarpışarkən gələn ölüm də xoşdu.

Namərdin bağrını yaran şeirimin,
Namərdçin ölümdən pis qorxusu var.
Mənim sözlərimin süd qoxusu yox,
Mənim sözlərimin qan qoxusu var.

Mən öz əqidəmdən dönən deyiləm,
Darda da vüqarım əyilən deyil.
Nadan hədəsindən döyüşkən şeirim,
Hürküb öz qınına çəkilən deyil.

Sözümün xofundan kimsə dillənib:
"Deyəsən, şairin əcəli çatıb".
Məni aparacaq qəfil bir ölüm,
Bəlkə də, qapımda marığa yatıb.

Kimsə diş qıcadır öz kürsüsündən,
Görünür, vəzifə imkanı çoxdu.
Kəfəni boynunda olan şairin,
Stol qullarından qorxusu yoxdu.

Mən öz əcəlimlə ölən deyiləm,
Bir güllə, bir bıçaq izləyir məni.
Kəfənim boynumda yol gedirəm mən,
Hardasa bir ölüm gözləyir məni.

*21.04.1996*

**TANRI PIÇILTISI**

İlhamlı çağımda yazıram ancaq,
Belədə hisslərim simtək tarımdı.
İlhamlı çağlarım səssiz-səmirsiz,
Tanrını dinləmək məqamlarımdı.

Beləcə tanrıyla qovuşur ruhum,
Eşidib duyuram haqq səsini mən.
Mən özüm yazmıram,
mən nəkarəyəm,
Yazıram tanrının diktəsini mən.

İlhamlı çağımda yazıram ancaq,
İlhamsız qələmə yaxın gəlmərəm.
Tanrı qulağıma pıçıldamasa,
Bircə kəlmə belə yaza bilmərəm.

Nələri anmıram bu pıçıltıda?-
Anıram necə "söz yoxdan var olur",-
Anıram sehrini, hikmətini də.

Sirri açıldıqca, duyuram aşkar,
Sözlərin ilahi qüdrətini də.

Qüdrət tanrınındı, söz tanrınındı,
Bu hissə hörmətlə yanaşıram mən.
İlhamlı çağımda,- nadan gülməsin -
Tanrıyla dil tapıb, danışıram mən.

İlahi nur düşər beynimə bu an,
Ağlıma fikirlər o nurdan gəlir.
Zəif şeirim varsa, özüm yazmışam.
Yaxşı şeirlərim Tanrıdan gəlir.

İlhamlı çağımda yazıram ancaq,
İlhamsız qələmə yaxın gəlmərəm.
Tanrı qulağıma pıçıldamasa,
Bircə kəlmə belə yaza bilmərəm.

*13.12.1994.*

## KÖNLÜM BAŞQA YOL TANIMIR

Qanı ki, qannan yuyarlar,
Könlüm başqa yol tanımır.
Yurd uğrunda can qoyarlar,
Könlüm başqa yol tanımır.

Bir yol ki,- haqq özülüdü,
O yolun bəndə quludu.
Haqq yolu - tanrı yoludu,
Könlüm başqa yol tanımır.

Türkün türklüyü qandadı,
Hələ qılıncı qındadı.
Əlac birlik yolundadı,
Könlüm başqa yol tanımır.

Birlik millətin gücüdü, -
Birlik varsa o, güclüdü.
Kim güclüdü, - qalib odu,
Könlüm başqa yol tanımır.

Yurd çevrilibsə tapdağa,
Yurd üçün dönüb dayağa,
Türk qalxmalıdır ayağa, -
Könlüm başqa yol tanımır.

Yadlıq torpağım yox, - bölüm,
Bu son cəngdi, bu son zülüm.
Ya "olum"du, ya da "ölüm", -
Könlüm başqa yol tanımır.

Bu döyüşdü,
duran gəlsin,
Düşmənə yas quran gəlsin,
Qanı qannan yuyan gəlsin,
Könlüm başqa yol tanımır.

Gələr gözlədiyin o an,
Sıyır qılıncını qından.
Haqq sənindir, Azərbaycan,
Könlüm başqa Haqq tanımır.

Türk əyilməz müxənnətə,
Tablamaz zülmə, möhnətə.

"Qisas qalmaz qiyamətə", -
Könlüm başqa yol tanımır.

Ruhumda bir birlik andı,
Bu anda başım qurbandı.
Nicat yolumuz Turandı,
Könlüm başqa yol tanımır.

*28.12.1993.*

## ŞEİR YOLU

Bir yol seçdin, ürək,
yollar içində,
Mən də istəyinin səsinə uydum.
Bu axşam narahat duyğular üstə,
Sənə hədə gələn ağrını duydum.
Yarı yolda məni qoyma, ey ürək,
Heç zaman dilimi eləmə gödək.
İndi ki, bu yolu özün seçmisən,
Onda apar məni axırınadək.

## TANRIM, TÖVBƏMİ QƏBUL ET

Boş keçən ömrü unutdum,
Tanrım, tövbəmi qəbul et.
Gəlib ətəyindən tutdum,
Tanrım, tövbəmi qəbul et.

Cavabsız qoyma ahımı,
Bağışla hər günahımı.

Qəbul et, tövbə duamı,
Tanrım, tövbəmi qəbul et.

Sənsən ruhumda andığım, -
Kəræminə inandığım,
Haqq yolunda tapındığım,
Tanrım, tövbəmi qəbul et.

Mən imansız kiməm, nəyəm? -
Onsuz günah içindəyəm.
Mən çox şeyə tövbəliyəm,
Tanrım, tövbəmi qəbul et.

Qulunam - dili dualı,
Duam dilimdə bir ağı.
"Qul xətasız olmur" axı,
Tanrım, tövbəmi qəbul et.

Mən yerin fağır bəndəsi,-
Üzümdə qəmin kölgəsi.
Mən sadiq bir eşq köləsi,
Tanrım, tövbəmi qəbul et.

Yarıtmasam da hər kimi,
Yaşadım mən bir ər kimi.
Qəbul et, bəndə ərkimi,
Tanrım, tövbəmi qəbul et.

Mən haqqa doğru addadım,
Dərgahına yol aradım.
Mən "Mən"imdən “Sən”ə vardım,
Tanrım, tövbəmi qəbul et.

Bəxtdən ki, eşq düyünüm var,
Başımda min oyunum var.
Öndə qiyamət günüm var,
Tanrım, tövbəmi qəbul et.

Kərəmində nəzərim var,
Önündə tövbə ərzim var.
Bir diləyim,
Bir ərzim var,
Tanrım, tövbəmi qəbul et.

Gözümdə qalmaz niyyətim,
Səndən gəlsə bəraətim.
Bu son sözüm, vəsiyyətim,
Tanrım, tövbəmi qəbul et.

*31.12.1993.*

## GÖRƏN DƏRVİŞ DEYİR MƏNƏ

Tanrı eşqinə tapındım,
Görən dərviş deyir mənə.
Bu eşqdə "Mən"imi andım,
Görən dərviş deyir mənə.

Eşqim itaət eşqidi,
Haqqa ibadət eşqidi.
Ruhumda vəhdət eşqidi,
Görən dərviş deyir mənə.

Qiblə bildim səccadəmi,
Tanrıya qıldım səcdəmi.

Dəyişmədim heç xirqəmi,
Görən dərviş deyir mənə.

Əlimdə kəşkülüm yoxkən,
Bu yolda müşkülüm yoxkən,
Qarşımda bir ölüm yoxkən,
Görən dərviş deyir mənə.

Heybəmdə dərd-qəm ruzum var,-
Kama yetməyən arzum var.
Tanrıdan gəlmə sözüm var,
Görən dərviş deyir mənə.

Haqq evinə nəzər saldım,
Tövbə edib, dua qıldım.
Çox sirrin şərhinə vardım,
Görən dərviş deyir mənə.

Eşqdə laməkanı sevdim,-
O gövhər məkanı sevdim.
Üzü yox, mənanı sevdim,
Görən dərviş deyir mənə.

Mən eşqlə kamala yetdim,
Haqqı nahaqdan hifz etdim.
Tanrı dağına yol getdim,
Görən dərviş deyir mənə.

Bir sirr dolu mürid idim,
Nəimi olmuş mürşidim.
Bəlkə elə bir dərvişdim,
Görən dərviş deyir mənə.

Bir zərrəyəm, - haqq dilərəm,
Küllə qarışmaq dilərəm.
Haqqa qovuşmaq dilərəm,
Görən dərviş deyir mənə.

*2.10.1994.*

## HAKİMİYYƏT MARAFONU

Dünya siyasət dünyasımı, baba,
İndi siyasətə can atır hamı, baba.
Dünənin şahmatçısı,
Dünənin ədəbiyyatçısı,
Bu günün "siyasətçisidi".
Siyasətdən kənarda qalan şair,
nadanın gözündə
dünyadan bixəbərin birisidi.
İndiki doğulanlar da
siyasətcil doğulur, baba.
Belə zamanda
Şeirin bir qəpiklik qiyməti yox.
İstedadlar bələyindəcə
boğulur, baba.
Gözün aydın,
dünən bir dəllək də,
atıldı siyasət meydanına.
Qoşuldu
hakimiyyət marafonuna.
Kürsüdə söz verilmişdi,
burnunun ucunda
nəsə höccələyirdi
siyasət mikrofonuna.

Dəllək xalatı əvəzinə,
Təzə kostyumu
                    necə də yaraşırdı ona.
Hamı əl çalırdı,
Hamı onu alqışlayırdı.
Yəqin millətə
Höccələyə-höccələyə
nəsə vəd edirdi,
nəsə bağışlayırdı.

Kiçik bir məmləkətdə,
Adam başına
bir "siyasətçi" düşür.
Üstəlik,
                    təzə doğulanların da,
Başında siyasət havası.
Adambaşına
Bir "siyasətçi" düşən ölkədə,
Qurtarmaz, baba,
Qurtarmaz
                    hakimiyyət davası.

*18.03.1995.*

## NAMƏRDLƏR

Söyün məni,
Döyün məni, namərdlər!
Qabağınızdan qaçan deyiləm.
Namərdliyinizi dərd edib,
Söz-söhbət açan deyiləm.

Şeirlərimə böhtan atın,
Vəzifə stullarınızın,
Namərd imkanı çoxdu.
Barmaqlarımı bal da etsəm,
Sizinçün, - xeyri yoxdu!

Sizdən incimirəm,
Hərənin bir cür vərdişi var.
İşinizdən qalmayın, namərdlər!
Mərdin mərd,
Namərdin namərd işi var!

*10.02.1996.*

## ATAM HAQQINDA BİR-İKİ SÖZ

Hərdən gözlərində oxunsa da qəm,
Gülüb ki, öz qəmi olmasın qəmim.
Tərifli ömründən yaza bilmirəm,
Çünki tərif yazan deyil qələmim.

Giley də etməyib tənhalığından,
Sözü bütöv olub,
könlü düz olub.

Ata zəhmətinin halallığından,
Bizim dar gündə də ruzumuz olub.

Çəkir ömrümüzün qayğı payını,
Bu qismət boynuna ömürlük düşüb.
Mənim tələbəlik qayğılarımdan,
Atamın çiyninə ağır yük düşüb.

Onunçün sərt olub dövrün gərdişi,
Tənha ocağında tək ömür sürür.
Ömür yoldaşını itirən kişi,
Oğul evləndirir,
                gəlin köçürür.

Haqqı həmişəlik boynumuzdadı,
Gərək xatırlayam yeri düşəndə.
Adıma hörmətdir atamın adı,
Gərək hörmət olam adına mən də.

Hərdən gözlərində oxunsa da qəm,
Gülüb ki, öz qəmi olmasın qəmim.
Tərifli ömründən yaza bilmirəm,
Çünki tərif yazan deyil qələmim.

## KİŞİLƏRƏ...

Nə vaxtdır bu xalqın gözləri gülmür,
Vətən dardadırsa, göz gülər necə?
Özgə torpağında meydan oxuyur,
Bir ovuc lənətə gəlmişlər necə.

Hanı mərd kişilər, - yatıblar belə?
Qeyrəti qanından atıblar belə?

Yoxsa qəm selində batıblar belə,-
Yurdunda qan tökür vəhşilər necə.

Üzülər düşmənin başı, - bilirəm,
Kəsilər bu zülüm işi, - bilirəm.
Kişilər, mən sizi kişi bilirəm,
Siz olan torpağa yad gələr necə?!

Əyib anaları qəm bükür hələ,
Bacılar gözündən yaş tökür hələ.
Düşmən bağrımızda dərd əkir hələ,
Necə dözürsünüz,
                    kişilər, necə?!

*08.11.1993.*

**QAPIMIN İTİ**

Başıma bəla olub,
qapımın iti.
Günüm küylə keçir,
gecəm narahat.
Elə ki,
            sümük göstərib,
qabağına atardım,
Gəmirib olurdu rahat.
Bir gün boğazımdan kəsib,
yağlı tikə verdim,
            bir nəfəsə yedi.
Yedi zingildədi,
Bir də istədi...
O gündən

Yeri düşdü-düşmədi,
Elə hürür.
Demə, özümə hürürmüş.
Nə biləydim,
tikə yağlı olanda,
Qapının iti də
qudururmuş.

*07.10.1989.*

## ŞAİR QƏLƏMİ

Bənzətməsiz, filansız
Hamının gördüyü kimi,
Adicə qələmdi
şair qələmi.
Azadlıq deyənləri zindan,
Doğmaları qan çəkəntək,
Şair qələmini də çəkər
Yer üzünü dərdi,
qəmi.

Özünə şair deyən kəs,
Yaxasını
kənar çəkə bilməz,
Dünyanın dərd, qəmindən.
Ən uzun örkən də
Gəlib doğanaqdan keçəntək,
Dünyanın bütün dərdləri də
Bir-bir gəlib,
Keçər şair qələmindən.

*22.12.1993.*

## İLAHİ MƏQAMDI ŞEİR

Şeir mənimçün
Udduğum havadı,
aldığım nəfəsdi,
                    ilhamdı.

Tanrının qulağıma pıçıldadığı
İlahi məqamdı.
Tanrıya tapındığımtək,
        tapındığım qüdrətdi:
Könlümün Məcnun sevgisi,
Sevda dolu həsrətdi.
Yaraşıqsız qadın
Özünə yaraşıq arzulayantək,
Kor gözünə
                    işıq arzulayantək,
Gündə arzuladığımdı şeir.
Tənha çağlarımdı şeir.
Dərdlərimi unudub,
Ən böyük
təsəlli aldığımdı şeir.
Hamıdan əl üzəndə,
Özündən də bezəndə,
Bəlkə də
                    gözümdə
Hamıya,
                    hər şeyə
                    əvəzdi şeir.
Anamın özü qədər
Mənə əzizdi şeir.

*13.11.1993.*

## DƏRD ŞAİRİN GƏRƏYİDİ

Dərd şairin gərəyidi,
Hava kimi,
                    su kimi.
İnsanın
son nəfəsdə də
Yaşamaq arzusu kimi.
Bədəndə qantək,
Xəstəyə dərman
                    gərək olantək
Dərd şairin gərəyidi.
Həyatın yaraşığı sevinc,
Şairin yaraşığı dərddir.
Dərddir yaşadan şairi...
Dərdin böyüyündən doğur
Dünyanın ən gözəl şeiri.
Dərdin gözəlidi
                    gözəl şeir,
                    gözəl fikir.
Doğmaları
                    qan çəkəntək,
Şairləri də dərd çəkir.
Dərddir şairin ilhamı,..
Dərdsiz yazılan şeirin
İlhamdan mayası olmur.
Dərdsiz yaranmır şeir,
Dərdsiz şair doğulmur.

*06.12.1993.*

## USTAD

*Nəriman Həsənzadəyə*

Həyat bir dərd verib hər ikimizə,
Günümüz kədərsiz ötüşmür, ustad.
Qəfil elə zərbə dəyib ki, bizə,
Ağrısı heç candan sovuşmur, ustad.

Tale başımıza saldı daşını,
Mən ana itirdim, sən yoldaşını.
Necə yaşayasan ömrün qışını,
Qadınsız həyatdan kar aşmır, ustad.

Ömür sınağamı bizləri çəkir?
Çəkir,
                    yolumuza sədləri çəkir.
Şairlər dərdini özləri çəkir,
Şairlər dərdini bölüşmür, ustad.
Öz dərdi elə bil azmış dərdliyə,
Tale də üstəlik dərd verir niyə?
Ürəyin Sarasız evə-eşiyə,
Qohuma,
                    qardaşa uyuşmur, ustad.

Necə o xilqətə qıydı təbiət,
Əlini əlindən üzdü təbiət.
"Sənin nigahını pozdu təbiət",-
Könlün bu qəsd ilə barışmır, ustad.

Qadınsız həyatdan kar aşmır dedim,
Könlün sevinclərə qarışmır dedim.
Tənhalıq kişiyə yaraşmır dedim,

Yaraşmır,
                    yaraşmır,
                    yaraşmır, ustad.

Necə duyğusuzmuş göynən gedənlər,
"Arvadından şeir yazır" - deyənlər.
Süfrəndə bir zaman çörək yeyənlər,
İndi heç halını soruşmur, ustad.

Ürək dözməz imiş can təkliyinə,
Həyatmış insanı salan pis günə,
Əzəldən belədir: şair ömrünə
Əzabdan savayı pay düşmür, ustad,
Təklərin üzünə bəxt gülmür, ustad.

*11.01.1994.*

## POLKOVNİK ŞABERƏ...

***Balzakın eyni adlı əsərinin qəhrəmanına***

Əgər həqiqətən yaşamısansa,
Başına gələnlər doğrusa,
Əgər çiynində
tanınmamaq dərdini daşımısansa,
Onda sənə,
Allah rəhmət eləsin,
Polkovnik Şaber.

Ağır dərddir,
sağ ikən
varlığı anılmamaq -
Əvvəl tanınmış ola-ola,
sonradan tanınmamaq.

Ağır dərddir,
Sadiq olduğun mühitdə
Alçaldılmaq,
                    rədd olunmaq.

Adını kimə soraq verdinsə,
Səni axmaq yerinə qoydu,
Neçə maymaq,
                    Özü axmaq.
Bəlkə də, bu səninçün,
Alın yazısı imiş.
Varlığını sübut edincə,
Varlığın əldən getməliymiş.

Dirilər cərgəsində
Elə bil yoxmuş yerin.
Kiməsə sərf edirmiş,
Yalan ölüm xəbərin.

... Polkovnik Şaber,
Sənin aqibətini
Paxılların ucbatından,
Şeirdə çəkirəm indi.
Dərdin mənə tanışdır,-
Mənim şeirdə taleyim,
Eynən sənin taleyindi.

*30.10.1994.*

## ŞAİR, ZAMAN VƏ ZİNDAN

"Ölərəm yazmasam",-
Özündən razı bir şair
Gəncliyində belə demişdi.
Elə ki, zaman ağırlaşdı,
Oğul-uşaq qayğısından
Şeiri atdı.
Başqa işin qulpundan yapışdı.
... Əlləri pulnan oynayır,
Şeir indi onunçün
Onuncu dərəcəli işdi.

Şairlik yüksək əqidədi,
Əqidəsindən dönməz şairlər olub,
Xaqani, Nəsimi, Füzuli.
İradələrini
qıra bilməyib bir an
Nə hökmdar qorxusu,
Nə ağır zaman,
Nə də zindan.

Əqidəli şair
Zamanla müxalifətdədir,
Doğulduğu andan.
Əsil şairləri qorxutmur,
Nə oğul-uşaq qayğısı,
Nə ağır zaman,
Nə də zindan!

*01.12.1994.*

## ŞƏKƏR ASLANA

*(elegiya)*

Şəkər Aslan, ustadım, –
Yenə də səni andım.
Bu sözləri duatək,
Ruhuna pıçıldadım:
Rəhmət sənə,
min rəhmət!

Tanıdığım ilk gündən,
Yaxşılıq gördüm səndən.
Söz də düşdü gözümdən,
Sənin vaxtsız köçündən, –
Rəhmət sənə,
min rəhmət!

Sən şeirə tapınmışdın,
Haqqı şeirdə tapmışdın.
Sən şair şöhrətini,
Can qoyub qazanmışdın, –
Rəhmət sənə,
min rəhmət!

Sən haqqa vurğun idin,
Haqsevənin biriydin.
Bir şair söyləmişkən:
Sən bölgə şairi yox,
Sən ölkə şairiydin,
Rəhmət sənə,
min rəhmət!

Yoxsan, gülmür gözlərim,
Yoxsan, artıb qəhərim.
Sən xalqın qəlbindəsən,
Şəkər Aslan, şəkərim, –
Rəhmət sənə,
                min rəhmət!

Qayğınla yol adladım,
Sənətə düşdü adım.
Bu qayğıyçın, hörmətçin,
Şəkər Aslan, ustadım,
Rəhmət sənə,
                min rəhmət!

Rəhmət,
                ruhuna rəhmət!

*17.03.1996.*

**BOZ AXIN**

Yaman artıb yenə söz işlədənlər,
Deməyə bilmirəm bir gileyimi:
Onlar oxucuya boz yazıları,
Sırımaq istəyir boş əmzik kimi.

Uşaq aldadandır boş əmzik axı,
Onu dolu bilib sümürür uşaq.
Boşluğunu duyub, dərhal əmziyi
Ağzından hirs ilə tüpürür uşaq.

Yazan bilməsin ki, naşıdı kimsə,
Boş əmzik kimidir boz ədəbiyyat.

Oxucu sadəlövh bir uşaq kimi;
Boşluğunu görüb, boz yazıları
İçiboş əmziktək atar o saat.

Hardan axıb gəlir,
                                bu axın, hardan? –
Şeirə lil qatılır hər dalğasından.
Boğulan adamtək qəzet, jurnallar,
Qurtula bilməyir bu boz axından.

Nisbəti pozulub yaxşının, pisin,
Meyarlar, ölçülər biryolluq itir.
Yağışdan sonrakı göbələk kimi,
İndi hər addımda bir "şair" bitir.

Meyar itib deyə üzə çıxanlar,
Barı özgəsinə xamtək baxmasın;
Tənqid susub deyə, boz matahını,
Kamil sənət kimi gözə soxmasın.

Kiminsə xətrinə dəyər bu şeirim,
Yəqin sözlərim də tənəsiz qalmaz.
Onu bilirəm ki, poeziyanı,
Avgi tövləsinə döndərmək olmaz.

*17.12.1994.*

## YADLARIN DOĞMALIĞI, DOĞMALARIN YADLIĞI

Həyat də sönükləşir,
hər şey adiləşəndə,
Günlər də ömrümüzə
bir-birindən boş gəlir.
Doğmalardan doğmatək
doğmalıq görməyəndə,
Yadların doğmalığı
bizə daha xoş gəlir.

Könlümü bu dünyanın
qəmi incidibdisə,
Elə doğmalarım var,
tamam unudub məni.
Yadların doğmalığı
məni isidibdisə,
Doğmaların yadlığı
yaman üşüdüb məni.

Doğmalar yadlaşanda,
ömürlər də təklənir,
Min nəfərin içində
keçən həyatım təkmiş.
İnsana dar günündə,-
deyilən söz gerçəkmiş -
"Uzaq qohumdan demə,
yaxın qonşu gərəkmiş".

*17.12.1993.*

## NƏSLİMƏ...

Qədrim bilinməsə də,
qədirbilməz olmadım,
Mən necə var idimsə,
mən o cür də yaşadım.
Mən sizdən doğma kimi
bir doğmalıq duymadım,
Bütün ağrıları da
özümlə tək daşıdım.

Öz nəslimin adını
ucaltmaq istəyirdim,
Bu məqsəd yolunda da
vuruşur-çarpışırdım.
Mən nəslimin adını
çiynimdə tutmuş idim,
Başımdan daha uca
tutmağa çalışırdım.

*02.01.1996.*

## ƏSİL DOST

***Ədalət Vəliyevə***

Əsil dost
Əsil şeir kimidi.
Əsil şeir yazmaq qədər,
Çətindi əsil dost tapmaq.
Uzaqda olan dostların gözündə
Yaxın dostların qəmidi.
Yaxşı şeir səmimi olantək,

Yaxşı dostlar da
Doğmadı, səmimidi.
Uzaq qohumdan yaxın,
Mehribandı,
                    incədi.
Çoxundan irəli,
Çoxundan öncədi...
Oğlanı
Qız baxışı çəkəntək,
Quraq torpaq
Yağışı çəkəntək,
Əsil dostları da bir-birinə
Səmimiyyət çəkər,
Xoş niyyət çəkər.

Uzaq olarlar
Həsəddən, umacaqdan,
Təmənnalı tostlardan.
Yaxşıların da qədri bilinməzdi,
Dünya xali olsaydı
Yaxşı dostlardan.
Əsil dostun yolunda
Başından keçsə dost, yeridi.
Torpaqdan keçilməz,
Əsil dost
                    torpaq kimidi...

*01.12.1994.*

## SƏHƏRƏ TƏLƏSƏN QATAR

Mənzilə tələsir qatar necə də,
Mənzilə tələsir sinəmdə ürək.
Yəqin bu qaranlıq sıxır qatarı,
İşığa can atır o da mənim tək.

Anamın nigaran gözləri yolda,
Daha bu həsrət də dözəsi deyil.
Bilirəm təklikdən bezikən anam,
Məni gözləməkdən bezəsi deyil.

Gedirəm ömrümün ilk çağlarına,
Gedirəm, hələ ki, mənzil uzaqdır.
Məni ayrılığın əlindən alıb,
Bu qatar anama çatdıracaqdır.

Bu qarşı səhərdə çatacağım yurd,
Bu qarşı səhərdə yol gözləyən var.
Bildi ki, vüsala can atır ürək,
Bəlkə də onunçün tələsir qatar...

## BİR NAZİR MÜAVİNİNƏ

Bu gün sən
Meşin qapı dalında
Nazir müavinisən,
Kreslo gücünə
möhürlü, iddialı...
Nağıllardakı
dev kimisən.
Bu gün
sənin üçün
"Dost" məfhumu yox,
Yalnız özünçün
məşğul kimisən.
Aşağıdakıların önündə
nazir müavini,
Yuxarıdakıların önündə
qul kimisən.
Sən kabinetində nida,
nazir önündə
vergül kimisən.
Bu gün sənin əlin
Böyüklərin ətəyində,
Sümüyünə düşən hava,
Böyüklərin tütəyində...
Bu gün sən
Vəzifə pillələrini keçirsən
Böyüklərin yedəyində...
Bu gün sən
Dünən adlı kökündən üzülüsən.

Dostların xeyir-şərində
daim üzürlüsən.
Sən zamanın nəbzini tutan,
rəngdən-rəngə düşən
Buqələmun üzlüsən.

Vaxt gələr
Kreslonun da sonu çatacaq,
Onda dünənin
Bugününün yaxasından yapışacaq.
Hələliksə,
özünçün yaşa,
Yaşa, vəzifə qəmişi,
Yaşa, vəzifə görməmişi!

*19.03.1995.*

## SƏBRİ ÇATMAYAN UŞAQ

***Dostum Xəlil Talıbova***

Şəninə
bütün tərifli sözlər deyilib,
Tək "dahi" sözündən başqa.
Baş kresloda oturmağa,
Heç kimi layiq bilmir,
özündən başqa.

Coşub,
"xalq", "xalq" - deyir elə,-
Xalqdan olsa da aralı.
Xalqın boğazına keçib,
Əsrin bu "çılpaq kralı".

Moizə dinləyir hamı,
Qulağa xoş gəlir, - deyə.
Millət də dözür birtəhər,
Daş səbrini yeyə-yeyə.

Bütsevənmiş bu xalq, - guya,
Qeydinə bütlər qalacaq.
Allah, bu millət axırda,
Müsəlmançılıqdan çıxıb,
Vallah, bütpərəst olacaq.

Bütünə sadiq millətin,
Dili qısa,
                    səbri uzun.
Yalanına uyub gedir,
İçiboş,
                    vəd dolu sözün.

... Şairi də öz hayında, -
Əsiridir məddah şeirin.
Hamısı bütpərəst imiş,
Qoltuqlanan,
Yaltaqlanan şairlərin.

Haqq sözü dilə alanın
Görünür, bu çək-çevirdə,
Ağlı çatır,
                    qəbri çatmır.
Yalan tərifin önündə,
Dilini dinc saxlamağa,
Haradasa bir uşağın,
Qeyrətindən səbri çatmır.

*20.01.1996.*

## BU KİŞİNİN

Yenə bu kişinin
İlhamı "şairlik" edir
Yenə bu kişinin
İlhamı baş aparır.
Uğurlarını sadalayır bir-bir,
Xalqın rifahına
"bəh-bəh" - deyir.
Kişi
baməzə kişidir,
Vəd verir,
məclis qurur,
Duruşunda bir qürur.
Güzəranımızın xoş olacağından
Lap belə "cəh-cəh" vurur.
Söz bolluğundan
çənəsi qızına-qızına,
Dilinə rahatlıq vermir,
Dilini qoymur ağzına.
Birtəhər dözür millət,
Birtəhər dözür qulaq asan.
Beləsinin başına,
Vallah, bir cilov keçirəsən,
İlhamı baş aparanda,
Yavaşca dartasan.

*24.01.1996*

## ŞEYTANI DA GÖRDÜK AXIR

***Bu insanlar ki, qardaşdır,***
***Və lakin yad şəklində.***
***Ədavət daima vardır,***
***Məhəbbət ad şəklində.***
**M.HADİ**

Şeytanı da gördük axır, –
Hə, Salman Rüşdi şəklində.
Şeytanların şeytanıymış,
Bu Salman Rüşdi əslində.
O, Londonda zühur etdi,
Kindi, hədyandı dilində.
Bu şeytan ələbaxandı,-
Oyuncaqdı yad əlində.
Belə şeytan görünməyib,
Dünyanın şeytan nəslində.
Zatıqırıq çıxdığından,
Bu şeytan danıb əslin də.
Lənətlənib, sığnaq tapıb,
Onun-bunun ətəyində.
Yeyəcək böhtan atdığı,
Dinin gec-tez kötəyin də.
Qorxusundan günü keçir,
Ağalarının "tərkində".
Üzüləcək başı bir gün,
Lap olsa yerin təkində.
Ölüm hökmü var üstündə,
Hökm də qalır öz hökmündə.
Zirzəmilərdə yaşayır,
Salman Rüşdi it kökündə.

İşıq üzünə həsrətdi,
Boğulur fitnə-felində.
Dünya şeytan görməmişdi,
Salman Rüşdinin mislində.
... Şeytanı da gördük axır,-
Hə, Salman Rüşdi şəklində.
Şeytanı mən gördüyümün,
Daha olmaram şəkkində.

*05.02.1996.*

## ŞAİRLİK AZARI

***Bəzi istedadsız cavanlara***

Cavanlar, cavanlar...
Görmüşdülər ki,
Yaxşı şairləri qapılarda
Gül-çiçəklə qarşılayırlar.
Həvəsə düşdülər,
Qələmə sarıldılar.
Adlarına şair desinlər təki...
Özlərini birtəhər
Qapılardan içəri saldılar.
İçəridə üzlərinə dedilər:
– Həvəsdi,
                    bəsdi,
Şeiri bu qədər ucuz tutmaq
                    əbəsdi.
Zəif şeirləri qoltuqlarında
geri qayıtdılar.
Kimsə qulaqlarına pıçıldadı,
O ki var:
– Qapıdan qovulub

bacadan girməyəndən
                    şair olmaz.
Bu dəfə bacadan girdilər,
                    xeyri olmadı.
Bu uğursuzluq da onları
ruhdan salmadı.
Bilirdilər ki,
Asan qazanılmır
                    şair adı.
Kimsə yenə dinc durmadı
Qulaqlarına pıçıldadı:
Qapıdan dayı ilə girməyəndən
                    şair olmaz.
Bu fikir
ağıllarına batdı, deyəsən.
Sinələrini verib qabağa,
Getdilər dayı axtarmağa.
Cavanlar, cavanlar...

*22.10.1989.*

**TARİX**

Bir azdan tarixə dönər köhnə il, –
Zamanla yaşıddır,
                              qoşadır tarix.
Dəyərli bir anı varsa zamanın,
O anı əbədi yaşadır tarix.

Tarix zor götürmür, –
                              zoru yaşatmır,
Bu sirrin, bəlkə də, kökü dərində.
Tarixə zor ilə pərçim olanlar,
Çürüyür tarixin arxivlərində.

Zaman tarix üçün "cib dəftəridir",
İllər qeyd olunur vərəqlərində.
Tarix xidmətini unudan deyil,
Kimin ki, adı var "cib dəftərində".

Tarix qiymətini verir hər kəsin,
Qiymətini verir öz dəyərində.
Bizi xatırlarmı gələcək nəsil?
Adımız tarixin "cib dəftərində".

*31.12.1994.*

## İBRƏT HEYKƏLİ

Bayaqdan baxıram arx kənarında, –
Kol dibində bitən tər bənövşəyə.
Kimsədən xəcalət çəkirmiş kimi,
Düşündüm boynunu bükübdür niyə?

Bəlkə də özünə yaraşdırmırdı,
Adi kol dibinə sığınmağı da.
Yəqin vüqarına sığışdırmırdı,
Bu sayaq həyatda yaşamağı da.

Taleyin hökmüylə bitib kölgədə,
Ancaq taleyiylə barışmazdı o.
Öz hökmü əlində olsaydı əgər,
Özgə kölgəsində yaşamazdı o.

Duyar bənövşəni adi uşaq da,
Qoltuqda gəzən var, bəs duymur nədən?
Deyirəm dünyanın qoltuq qulları,
İbrət götürsünlər tər bənövşədən.

İbrət heykəliydi sanki bənövşə,
Necə kövrək idi,
                    necə utancaq.
Adi kol dibində utanırdı o,
Kimsə qoltuq altda utanmır ancaq.

*21.12.1994.*

**BU DÜNYA**

Bu bulağın kim lil qatdı gözünə?..
Ötən günçün çoxu döyür dizinə.
Gədaların yalnız gülür üzünə,
Yaxşı, ya pis bilməz imiş bu dünya.

Bu həyatdı, yoxsa sınaq meydanı,
Bu meydanda kim qoydu sərt qaydanı.
Bu dövrandı, yoxsa bazar tüğyanı,
Bu tüğyandan bezməz imiş bu dünya.

Hər ağrıya sinə gərdim, ürəyim,
"Sevinc əkdim, kədər dərdim", ürəyim.
Nahaq sənə əzab verdim, ürəyim,
Əzabına dəyməz imiş bu dünya!

*21.10.1994.*

## NEYNİRDİM AXI...

*Məmməd Araza*

Aman dünya, kim dəyişdi zamanı,
Kimdə gəzək dar ayaqda amanı.
Yaxşı qalıb, meydan sürür yamanı,
Mən belə dövranı neynirdim axı.

Zəmanənin qabarıbdı tərs üzü,
Bir yalana qurban gedir min düzü.
Nəhs gətirir gecəsindən gündüzü,
Mən belə dövranı neynirdim axı.

Öz burnundan görməyənlər uzağı,
Döndərdilər üstümüzə sazağı.
Hörmət, qayğı olub ayaq tapdağı,
Mən belə dövranı neynirdim axı.

Bazarında "millət olanda tarac",
Kasıbı da öz evində yatır ac.
Eləsi var boş çörəyə də möhtac,
Mən belə dövranı neynirdim axı.

Hara baxsan hər tərəfdə al-verdi,
Altı-üstü, sağı-solu alverdi.
Bir ömür ki, nicat yolu alverdi,
Mən belə dövranı neynirdim axı.

Ömür əgər nadanların ömrüsə,
Bizə qalan bu dünyanın cövrüsə.
Dövran təkcə gədaların dövrüsə, -
Mən belə dövranı neynirdim axı.

Bu millətin cib talayır çoxusu,
Yuxarıda baş girləyir oğrusu.
Doğru sözə balta dəyir doğrusu,
Mən belə dövranı neynirdim axı.

Haqqı nahaq üstələyən ölkədə,
İnanmıram dövran belə dövr edə.
Gələcəyi yaxşı oldu bəlkə də,-
Mən belə dövranı neynirdim axı,
Mən belə dövranı neynirdim axı!

*09.11.1995.*

## İSTEHZALI ŞEİR

***Bazar iqtisadiyyatını xalqı***
***soyub-talamaq kimi***
***başa düşən nadanlara.***

Ay nadürüst bəndələr,
Ay gədələr-güdələr,
Sizdən yığıbdı millət!
Hara baxır görəsən,
Bəs atalar,
dədələr!

Güdəlik eyib deyil,
Boydan gələn qismətdir.
Ancaq gədəlik ki, var
Çox alçaq bir xislətdir.

Gözdən uzaq deyilsiz,
Sizi gəzib güdələr.

Zaman siz istəyəndir,
Ay gədələr-güdələr!

Sizi nə dövran sıxar,
Nə də qanun hədələr.
Yeyin,
için,
kef edin,
Ay nəfsi ac gədələr!

Günbəgün artırsınız,
Yolxucu mikrob kimi.
Günahkar dövrandımı,
Pisləşən zəmanəmi?

Gözünüz var-dövlətdən,
Nə də ki puldan doymaz.
Bəylik həvəsiniz var,
Gədədən ki, bəy olmaz.

Könül bağlayıbsınız,
Rublə,
sentə,
dollara.
Millətdən də əzizdir,
Sizin üçün pul-para.

Dünya siz deyən oldu,
Mərdlə rəftarında sərt,
Namərdləsə səmimi.
Dünya münbit zəmidir,
Siz də ki, toxum kimi.

Sizi nə dövran sıxar,
Nə də qanun hədələr.
Dövran indi sizindir,
Ay nəfsi ac gədələr.

Çoxu çəkinir sizdən,
Canının qorxusundan.
Millət qorunsun gərək,
Qorunsun gərək millət,
Gədəlik virusundan!

*03.09.1994.*

## HAMI BİR UCDAN ALDADIR

Dünya al-ver dünyasımı?
Alverin edən aldadır.
Bazarında bazar açıb,
Cibini güdən aldadır.

Dövrün dəyişib gərdişi,
Düyünə düşüb çox işi.
İndi kişisini kişi,
Qadını qadın aldadır.

Azalır başı papaqlı,
Bilinmir haqsızla, haqlı.
Bir başı taclı da xalqı,
Xalqın adından aldadır.

Eşidən yox söz deyəni-
Çox çalışıb, az deyəni.

Çox vaxt sözün düz deyəni,
Görürsən, nadan aldadır.

Ağılmı yolunu çaşıb?
Nadanlar həddini aşıb.
Yuxarıda baş qarışıb,
Hamı bir ucdan aldadır.

*23.12.1992.*

## ELƏ, DEYƏSƏN, ÖZÜMƏM

***Elxana***

Qardaşım,
Zaman ağırlaşandan,
Ağırlaşıb ziyalının günü.
Ziyalının da ki, bəxti,
Elə bil, - Qordi düyünü.
Ayaqqabın ayağımda,
Palton əynimdə.
Canına "sağlıq" diləyib,
Açılır eynim də.
Bu da "bəh-bəh" dediyimiz quruluş,
Bu da qurduğumuz cəmiyyət.
Adamlarda azalır,
Get-gedə səmimiyyət
                    xoş niyyət!
Qəribə zamandı,..
Kimi çörək həsrətlisi,
Kimi kefində,
                    dəbində.
Kimi həyatın fövqündə,

Kimi də "Həyatın dibində".
İllərlə qurduğumuzu,
Dağıtdı bir ovuc
Millətdən dəm vuran.
Bir xəyal kimi gəlir indi,
Qədrini bilmədiyimiz dövran.
... Qalstukun boğazımda,
Kostyumun əynimdə.
Deyirəm: nə qəm,
Buna da min şükür.
Üstümdə özümünkü,
Elə, deyəsən, özüməm.

*15.02.1996.*

## İKİNCİ SALYERİ

Paxıllıq üzündən böhtan yazaraq,
Müşfiqi güdaza verdi bir xəbis.
O böhtan xəyanət işini gördü,
Motsarta verilən zəhərdən də pis.

Tarix az görməyib salyeriləri,
Birini fərq qoyub, mən ayırardım.
Müşfiqi güdaza verən şairi,
İkinci Salyeri adlandırardım.

*06.01.1995.*

## HÖRMƏT, QAYĞI

Niyə bu məzarı ot basıb görən,
Qırıb kol-kosunu atmayan kimdi?
Kimdi doğmasını unudan belə,
Xatirini əziz tutmayan kimdi?

Bumu doğmaların ruhuna hörmət?
Yoxsa hörmət hissi itib arada.
Ölənlərə qayğı yoxsa həyatda,
Demək, heç qayğı yox qalanlara da.

*20.08.1995.*

# MƏNİ ÖLÜMÜMDƏN SONRA SEVƏRLƏR

## BİR DÖVRDƏYƏM Kİ...

*Bir dövrdəyəm ki, nəzm olub xar,*
*Əşar bulunub kəsadi-bazar.*

**M.FÜZULİ**

Yox, mənim siz deyən bəxtim olmadı,
Yox, belə taleynən öyünmək olmaz.
Zəmanə ki, şeirə kəc baxdı, onda
Bir kimsə şairin qeydinə qalmaz.

Yenə kasad düşüb "şeirin bazarı",
"Bir zəmanədəyəm ki, nəzm olub xar".
"Gülə xar, lələ xarə" deyən bir dövr,
Yoxsa öz ömrünü yaşayır təkrar.

Amma mən yolumdan dönən deyiləm,
Bilirəm qarşımda kədər var, qəm var.
Ürəyim dönübdür uçuq bir evə,
Axtarsan içində söz xəzinəm var.

Söz-söz xərcləyirəm bu xəzinəmi,
Söz-söz talan olur olan-olmazım.
Yox, belə taleyə güvənmək olmaz.
Mənim ki, qazancım söz yanğısıdı,
Mənim ki, qazancım qəlb ağrısıdı.
Mənim taleyimi yaşama, oğlum
Mənim taleyimi yaşama, qızım!

*27.11.1994.*

## HƏLƏ Kİ, DİRİDİR...

Vallah, bu dünyadan gözüm su içmir,
Elə işləri var sirdi, bilinmir.
Hərənin başını bir cürə qatır,
Çox vaxt namərdiylə, mərdi bilinmir.

Bu tale deyilən nə ərköyündü,
Başıma açdığı min cür oyundu.
Dərd var gözdə aşkar, dərd var düyündü,
Mənim gözlərimin dərdi bilinmir.

Deyim sözümü də - yeridir, - deyə,
Mağmının, dilsizin biridir, - deyə,
Necə ki ölməyib, diridir - deyə,
Hələ ki Elşadın qədri bilinmir.

*20.01.1991.*

## MƏNİ ÖLÜMÜMDƏN SONRA SEVƏRLƏR

*(Özüm üçün elegiya)*

Əcəl qaralayar nəfsində məni,
Qoşar karvanına bir gün də məni.
O gün məzarının önündə məni,
Qarşılayıb ağla, anamın ruhu.

Bilirdim, hər ömrün son ucu puçdu,
Candan bezən ruhum canımdan uçdu.

Köçdü,
bu dünyadan oğlun da köçdü,
Ağla, qəbrim üstə, anamın ruhu.

Nəyim vardı axı, bir candan özgə,-
Bir yandan qəm üzdü, bir yandan özgə.
Mənə kim ağlasın ruhundan özgə?
Ağla, qəbrim üstə, anamın ruhu.

Həyat acısını qatdı günümə,
Nə qədər dərd vardı, çəkdi önümə.
Baxıb paymal olan cavan ömrümə,
Ağla, qəbrim üstə, anamın ruhu.

Küsdüm,
taleyin sərt üzündən küsdüm,
Zalımın, nankorun sözündən küsdüm.
Mən namərd dünyanın özündən küsdüm,
Ağla, qəbrim üstə, anamın ruhu.

Çoxunu məqsəddə əlbirdi gördüm,
Bacı da, qardaş da mən birdi gördüm.
Təklənib dünyada çox dərdi gördüm,
Ağla, qəbrim üstə, anamın ruhu.

Artıb çoxlarında hiylə duyğusu,
Tor qurur hələ də namərd qurğusu.
Gedir qardaşların torpaq bölgüsü,
Ağla, qəbrim üstə, anamın ruhu.

Ayıra bilmədim yaxını, yadı,-
Bilmədim kimi yad, kimi doğmadı.

Dərdimi deməyə kimsəm olmadı,
Ağla, qəbrim üstə, anamın ruhu.

Bilirəm özünə əziyyət verməz,-
Nə bacı, nə qardaş üstümə gəlməz.
Qədrimi bilmədi çox qədirbilməz,
Ağla, qəbrim üstə, anamın ruhu.

Hardasa şeirimi gizli öyərlər,
Hardasa adıma bədbin deyərlər.
Məni ölümümdən sonra sevərlər,
Ağla, qəbrim üstə, anamın ruhu.

Ağla, mənsiz qalan qadına ağla,
Ağla, mənsiz qalan Turana ağla,
Ağla, mənsiz qalan Fidana ağla,
Ağla, qəbrim üstə, anamın ruhu.

Təsəllim budur ki, yaşayanım var,
Adımı özündə yaşadanım var.
Bilim ki, üstümdə ağlayanım var,
Ağla, qəbrim üstə, anamın ruhu,
Ağla, qəbrim üstə, anamın ruhu!

*7-8.02.1995.*

## VƏSİYYƏT

Mən öləndə
vəsiyyətimə əməl edin barı.
Üstümə yığmayın
Doğma deyilən,
doğmalıqlarını görmədiyim
adamları.

Belələrini
Haqqım yox doğma sayam.
Mən doğmalar içində ögey,
Ögeylər içində doğmayam.
Mən yer üzünün
dərd əlindən
üzgün şairi, –
Atadan, qardaşdan, bacıdan
küsgün şairi...

Kimsə saxlasın
göz yaşını,
Nahaqdır qara bağlamağı da.
Özgə sevincinə sevinməyənin,
Yalandır dərdimə
ağlamağı da.

Çiyinlərində tabutuma
yer versin dostlarım, –
Mənim sirdaşlarım,
Dost deyilən qardaşlarım.
Tabutumun bir ucundan
Tutsun Turanım, –

Damarlarında qanım qaynayan
igidim, canım.

Mən yer üzündə
tənha yaşadım.
Ağrıları çiyinlərimdə
tənha daşıdım.
Ağrılarımı qəbriməcən, dostlar,
Çiyinlərinizə götürün.

Məni qəbrinin önündə
Gözləyəcək anamın ruhu,
Məni anama qədər ötürün.
Nəfəsi
soyuq olsa da yerin,
Anamın amanatı kimi,
Məni anamın
ruhuna təhvil verin.

...Mən yer üzündə
tənha yaşadım.
Öləndə
üstümə yığmayın
qədirbilməzləri.
Məni tənha kimi də
dəfn edin.
Günahlarım varsa,
Günahlarımı əfv edin!

*20.12.1995.*

## BABA XƏLİLOĞLUNA...

Unudulmuş,
Çökük,
Qərib məzarına baxanda,
Ürəyim dərd udur, Baba.
Udduğum bu dərdlər
Boğazımı qurudur, Baba.
Baş daşın da yox...
Haqqın boynumdadır,
Üstümdə haqqın çox...
Dövrün üzü qara olsun,
Bir baş daşı düzəltdirməyə də
pulum yox.
Bu dərddən
mənə bir ölüm yox.
Tənha yaşadın,
Çox vaxt da düşmədin yada.
Mən də sənin kimi
tənhayam indi.
Unudulmuş qəbrin kimi,
Unudulmuşam dünyada.
Tənha yaşadın,
Amma kişi kimi yaşadın.
Kişi kimi yaşadığın üçün də,
Qədirbilənlərin qəlbində
yaşayır adın.
Dərd eləmə,
Məzarın çökükdü,
ya sökükdü, Baba.

İndiki övladların çoxu
üzü dönükdü, Baba.
Təklərin məzarı,
Bəlkə də, belə olur.
Aqibətimi düşünəndə
gözlərim yaşla dolur.
Mən də təkəm...
Dərd güc gələndə,
Hərdən bu soyuqluqdan,
Hərdən bu təklikdən,
Az qalır bağrımı sökəm.
Səni
bir anlıq da unutmamışam,-
Olsam da harda.
Bir azdan yanında uzanacağam,
Çökük,
soyuq məzarda.

*13.01.1996.*

## İŞIQ UCU

Ümid ürəyimdə işıq ucudu,
Ürək özü bilir nəyə qadirəm;
Mən hansı işığın ucundan tutub,
Mən hansı məqsədə doğru gedirəm.

Tarixin yolları işıqsız deyil,
İşıqsız tarix də yarana bilmir.
... Otuzuncu illər işığı sönən,
Evlərin hələ də işığı gəlmir.

Arzu yollarında sinəm boş deyil,
Arzu yollarında sinəm dopdolu.
Dünyanın xoşbəxtlik yolu ikidi,
Biri işıq yolu, biri haqq yolu.

Hələ yol gedirəm üzü işığa,
Hələ qollarımda işıq gücü var.
Mən elə işlərdən yapışıram ki,
Müvəffəq olmağa işıq ucu var.

*15.03.1990.*

## DEYƏN DOĞRU DEMİR, YAXUD MƏDDAH ŞAİRLƏRƏ

### I

Haqqımda: bədbindir, - söyləyib biri,
Guya taleyimdən narazıyam mən.
Dərdi dərd gətirən kövrək bir ömrün,
Necə yazım axı xoşbəxtliyindən?

Kövrək hisslərimdən yazıram bəzən,
Kövrək anlarımın şeiri kövrəkdi.
Hərdən dərdlərimdən yazıram ki, mən,
Bundan rahatlaşan, çünki ürəkdi.

Deyən doğru demir haqqımda mənim,
Bu xoş etirafdı, - xudbinlik deyil.
Ürək yüngülləşmək istəyən zaman,
Bəzən dərddən yazmaq bədbinlik deyil.

**II**

*Ya olduğun kimi görün,*
*Ya göründüyün kimi ol*
*C.RUMİ*

Kimsə metod gəzir sənətdə yenə,
Kimsə yaman güdür prinsipləri.
Yenə realizm* çərçivəsində,
Kimsə vəsf eləyir müsbət tipləri.

Daim xoşbəxtlikdən yazan sənətkar,
Bezmirmi xoşbəxtlik xəstəliyindən?
Adına nikbindir desinlər deyə,
Bədbəxt də yazıbdır xoşbəxtliyindən.

Üzü gülənlər var,
Üzdən "xoşbəxtdi",
Di gəl ürəyini qəm, kədər didər.
Daim xoşbəxtlikdən yazmağın özü,
Gülüncdür həyatı bəzəmək qədər.

Şair var zamanın "nəbzini tutdu",
Qopmadı məddahlar cərgəsindən o.
Yetmiş il yalançı nəğmələr qoşdu,
Yalançı xoşbəxtlər ölkəsindən o.

"Çılpaq şah"a bənzər belə şairin,
İddiası böyük,
sözüsə boşdu.
Nə yaxşı biryolluq dəyişdi həyat,
Hamı olduğutək görünsə xoşdu...

*10-28.02.1995.*

---

* Sosialist realizmi nəzərdə tutulur

## "ÇILPAQ KRAL"

*(H.X.Andersendən)*

Ömrü boyu,
Əsrin şeir "krallarından" biri,
Yalançı şeirlər qoşdu.
Xam bir mühitdə
dildən-dilə düşdü.
Sağlığında
yuxarılara yarındığından,
Boz yazılarını, –
Şeirə, bənzər şüarlarını,
Elə təriflədilər ki,
Deyərdin:
şair yox,
Pərəstiş edilən bütdü.
Elə ki, öldü,
Unuduldu,-
Hamı onu unutdu.
Nə xatırlandı,
Nə də biri
Adını tutdu.
Sənətdə kimliyinə də
Yozduqları bir sübutdu.
Ehtiram göstərib,
Yazdıqlarını
Vərəqləyəndə də
Görüblər ki,
"kral lütdü".

*28.03.1995.*

* * *

İlhamı şeirdə gətirirdi,
bir böyük şair
ilk şeirlərinə
yüksək də qiymət verdi,
O qiymətdən sonra,
ünvanına təriflər tuşlandı,
qəzet-jurnallarda
xoş qarşılandı.
Sonra...
Tərif xumarında,
özündən razılıq
anları başlandı...
Qəfil nəsrə keçdi,
Povest, roman yazmağa girişdi.
Elə bildi,
bir əldə
iki qarpız tutmaq
asan işdi.
Yazdı-pozdu, - alınmadı,
Şeirdə qazandığı uğuru,
Nəsrdə qazanmadı.
Yenə şeirə keçdi,
Lakin gecdi...
İlhamı
boz yazılara sərf etdiyindən,
Yaxşı şeir yazmaqdan da oldu.
Bir əldə
İki qarpız tutmaq istəyirdi,
Birini tutmaqdan da oldu.

*07.05.1995.*

## BAŞ AĞRISI

Alnımdan yazıram, – deyirdi biri,
Guya yazdıqları, –
qondardıqları,
Alın yazısıdı,
Bəxt yazısıdı.
Onun yazdıqları,-
Bilmirdi bədbəxt,-
Alın yazısı yox,
Baş ağrısıdı.

*25.12.1994.*

## VƏD ETMƏYƏ NƏ VAR Kİ...

Vəd etməyə nə var ki,
Dediyin danırsa dil.
Sözünə xilaf çıxan,
Aramızda az deyil.

Vəd etməyə nə var ki,
Bəlkə də min yol asan:
Çalış vədinə əməl,
Etməyi bacarasan.

*1978.*

## BALACA TURANIN DUASI

Balaca Turanı
Yedirdən kimi anası,
Başlayır uşağın
Tanrıya duası: –
– Allah ananı saxlasın,
– Allah atanı saxlasın
– Allah xalanı saxlasın.

Oğul istəyirəm
Ana qayğısı önündə,
Uşaq minnətdarlığına
kövrəlməsin.
Oğul istəyirəm
Bu dua önündə,
İnsafa gəlməsin.
Daş ürəklər də belə
Bu diləyi,
Bu istəyi
                    duyasıdı.
Duaların içində
Tanrıya tez yetəni də
Uşaqların duasıdı:
– Allah bacını saxlasın,
– Allah hamını saxlasın.

Belədə
Mərhəmətini əsirgəməz,
Uşaqların duasıyla,
Ömür dilənən ömrümüzə

Tanrı həyan durasıdı.
Bizi yaşadan da çox vaxt,
Uşaqların duasıdı.

*70.11.1995.*

## MƏNDƏ BİR ÜMİD VAR

Məndə bir ümid var,
Maneələri,
Sədləri aşmağa.
Hər şeyi təzədən başlamağa,
Məndə bir ümid var!

Məndə bir ümid var,
Boynuma götürdüyüm adı,
Şərəflə daşımağa.
Ömrü
ömürtək yaşamağa,
insantək yaşamağa,
Məndə bir ümid var!

Məndə bir ümid var,
Arzularımın yolunda,
Sərhəd də olsa keçəsiyəm,-
İstəyimə yetəsiyəm.
Mən sözümün yiyəsiyəm:
Tərs oğlu tərstək,
dediyimi edəsiyəm.
Lovğa da sanmasın,
Məni heç kim.
Çünki,
Məndə bir ümid var!

*12.04.1995.*

## UZUNÇULARA QISA MƏSLƏHƏT

Xırda mətləbdən ötrü
nə lazım həcmi dartmaq,
Kimə gərək şar kimi
üfürülmüş bir əsər?
Kağızın qıt çağında, sözü belə uzatma,
Hər mənanı qısa yaz,
hər fikri də müxtəsər.

*30.03.1995.*

## PLAGİATLA SÖHBƏT

Yenə söz qoşursan,
söz işlədirsən,
Yenə fənd qurursan,
aləm bəlası!
Fikrimi misrana "peyvənd" edirsən,
Necə də fəndgirsən,
Adəm balası!

Axı bu sevdada oxşadın kimə,
Yaman göz dikmisən sətirlərimə.
Elə girişirsən şeirlərimə,
Atan malı kimi,
atam balası!

Sən özgə haqqını qamarlayırsan,
Sən özgə payına şərik çıxırsan.
Beləmi özünə gün ağlayırsan?
Adam ol,
adam ol,
adam balası!

*11.06.1991.*

## YALANÇI

"Yalançını evinəcən qovarlar",-
Qovdum bir yalançını evinəcən.
Batdım qəmə...
Yalançıdan demə,
Doğruluq ummağım nahaqmış.
"Yalançı elə yalançıdır",-
Deyilən söz haqmış.

*09.02.1996.*

## SƏBİR

Dəyanətin,
        dözümlülüyün təməl daşı,
Təmkinliyin
        qan yaddaşı.
Ağlın düşüncəli fəaliyyəti,
Və bir də,
        müdrikliyin ölçü qabiliyyəti.

*05.12.1977.*

## MƏNİM SEVGİM

Mənim sevgim - dolan bulud,
İnci çilər bu torpağın
Gündən yanar dodağına.
Mənim sevgim - ana vətən,
Baş qoymuşam ayağına.
Mənim sevgim insanlara,
Sədaqətim, ləyaqətim.

Ürəyimə köç eyləyən
Gözəllərə məhəbbətim!
Mənim sevgim zülmətləri
Söküb, əridən dan üzü.
Mənim sevgim qızıl günəş,
Nurlandırır ömrümüzü.

*07.07.1977.*

## ÜMİDSİZLİK

Ümidsizlik, –
məyusluq, bədbinlik pası,
Acizliyin ürəkdə qərarlaşması.
Uzaqgörənliyin solan ziyası!
Ümidsizlik,–
Həyatın mənasızlığı,
qəlbin ətalət səsi,
Ömrün faciə zirvəsi!

*29.11.1977.*

## NƏNƏMİN ETİBARI

Bükülüb,
sabaha inamı azdı,
Yollara çıxdımmı nigaran qalar.
Nənəmin gözündə etibarsızdı,
Oğlunu cəbhədə itirən yollar.

Artdı döyüş ili qayğıları da,
Bu yollar ömrünü yarıtmalıydı.
Nənəmin yollara etibarı da,
Oğluyla cəbhədən qayıtmalıydı.

Nənəm qara kağız alıb o ara,
Ancaq inanmayıb, sorağda durub,
Dava qurtaranda baxıb yollara,
Lakin yolları da əliboş görüb.

Onda doğru bilib o bəd xəbəri,
Qarğayıb davaya – "oğlum gəlmədi..."
Bu hicran qəlbini elə sıxdı ki,
Bir də ömrü boyu üzü gülmədi.

...Bükülüb,
                    sabaha inamı azdı,
Yollara çıxdımmı nigaran qalar.
Nənəmin gözündə etibarsızdı,
Oğlunu cəbhədə itirən yollar.

*14.02.1983.*

## ƏSGƏRLİKDƏN QAYIDANDA

Vaxtdır...
Başa vurdum iki ili mən,
Bir azdan geriyə gərək yol alam.
O doğma mənzilə yetişənəcən,
Səhəri yuxusuz açacaq anam.

Yola boylanacaq qonum-qonşu da,
Qayğılı gözlərdən nur töküləcək.
Gərək ləngiməyim heç yollarda da,
Yoxsa səbirləri lap tükənəcək.

Babamın həsrətə heç dözümü yox,
Yəqin indi tez-tez yola göz dikir.

Bir uzunboylunun hamıdan da çox,
Bilirəm gözləri indi yol çəkir.

Dağlar gəlişimlə dəstgah quracaq,
Şimşək istəyəcək bir cəngi çalsın.
Bacım yuxusundan erkən duracaq,
Anamı birinci muştuluqlasın.

Yanar çöhrələrdə günəşin nuru,
Həsrət ilim-ilim dağılacaqdır.
Qapıda qurbanlıq quzunun ömrü,
Geciksəm, bir az da uzanacaqdır.

Gələrəm, sevincdən doqqaz küyləşər,
Çıxar görüşümə qəribsəyənlər.
Daha rəftarında mülayimləşər,
Əsgər paltarında məni görənlər.

**BİR PARÇA GÜNƏŞ**

Əllərim günəşin bir parçasıdır,
Dünyaya nur yağar əməllərindən.
Ömrümə uğurlu səhərlər açır,
Zəhmətlə ülfətə girdiyi gündən.

Ovcuna götürməz haram tikəni,
Çətində hayıma ilk çatanımdır.
Əllərim ömrümün qayğı çəkəni,
Adımı çoxuna tanıdanımdır.

Haqqa tapınıbdır, haqqa güvənər,
O nə hədələnər, nə hədə gələr.

Gücünü yoxlamaq istəsəz əgər,
Yeri məhvərindən tərpədə bilər.

Odu, hərarəti, soyumaz atəş,
Mehrini duydumu, daş da bar edər.
Necə inamlısa gecələr günəş,
Dünyanı əllərə etibar edər.

Əllərim dağ çapıb, qayalar yarıb,
Deməyin kobuddur sərt olduğuyçün.
Bəzən çox gözəllər fürsət axtarıb,
Mənim əllərimin sığalı üçün.

Əllərim günəşin bir parçasıdır,
Vətən yollarıma daim nur çilər.
Əllərim günəşin bir parçasıdır,
Dar gündə yer ona sığına bilər.

## HƏYAT, KƏDƏRİN ÇOXALIB

Həyat, kədərin çoxalıb,
Sevincindən iz qalmayıb.
Yadların qan-qadasından,
Ağlamayan göz qalmayıb.

Qələm götürübdü hərə,
Söz yapırlar vərəqlərə.
Elə daraşıblar şeirə,
Dil görməyən söz qalmayıb.

... Yaşayırıq əziyyətnən,
Xoş günə bağlı niyyətnən.
Çoxumuzda heç hörmətnən,
Ölməyə də üz qalmayıb.

*14.11.1993.*

## ANAMIN MƏZARI ÖNÜNDƏ...

Yat anam,
                    arxayın yat,
Mənzilin rahat olsun.
Tanrıdan arzum budur:
Məzarın nurla dolsun.

Dərd eləmə yoxluğu,
Dərd eləyən qəm udur.
Bir ölməz inamım var,
Əbədi ölüm yoxdur.

Əbədi ölüm yoxdur:
Can solsa da ruh yaşar.
Əbədi çevrilmələr,
Dəyişmələr olantək,
Hər şey təkrarlanantək,
Ömrün də təkrarı var.

Evimdə böyüyürsən:
Qızımın varlığında,
Sənin ruhundur, ana.
Üzü - üzündür sənin,
Gözü - gözündür sənin,
Boyu - boyundur, ana.

Daim qeydimə qaldın,
Tezcə boy atım deyə.
Şirin yuxundan oldun,
Mən şirin yatım deyə.

Rahat yat,
                    ev-eşikdən,
Nigaran olma, ana.
Barı sən o dünyada,
Yuxundan qalma, ana!

*05.11.1994.*

**ANASIZ ÖMRÜN AĞILARI**

*(elegiya)*

Dövran nə ağır gəldi?
Payız sancan arıtək
Könlümü çaldı getdi.
Ölüm kəmfürsət imiş,
Anamı aldı getdi.

Gəldi əcəl karvanı,
Anam qoşuldu getdi.
Ömrün bahar vədəsi,
Vədəsiz soldu getdi.

Kədər yel kimi gəldi,
Saçımı yoldu getdi.
Payız ağrılarıyla,
Qəlbimə dolu getdi.

Hicran gəldi evimə,
Bir şivən saldı getdi.

Xəzan vurdu bağçamı,
Gülü saraldı getdi.

Sevincə yer qalmadı,
Qəmə tutuldu getdi.
Bir nəslin şadlıq hissi,
Anamla öldü getdi.

Dərdimi bölüşənlər,
Dərdimi uddu getdi.
Yaylığım göz yaşından,
Tamam süzüldü getdi.

Arzulara yetməmiş,
Çoxu puç oldu getdi.
Sevinc mənə çatmamış,
Yolu buruldu getdi.

Qapımda ilham pərim,
Dərdə tuş gəldi getdi.
Bu nisgildən məni də,
O ölmüş bildi getdi.

Getdi könül xoşluğum,
Ömrüm pozuldu getdi.
Köksüz ağac kimiyəm,
Köküm üzüldü getdi.

Gəldi əcəl karvanı,
Anam qoşuldu getdi.
Bu karvana anamla,
Canım qoşuldu getdi,
Ömrüm qoşuldu getdi,
Günüm qoşuldu getdi.

*04.12.1994.*

## DƏRMANSIZ DƏRD

Kimin ki, nəsibi xəstəlik olur,
Çəkir kədəri o,
çəkir dərdi o.
Dərmana verdiyi son qəpiyini,
Bəlkə də çörəyə sərf edərdi o.

Dünya öz əzəli gedişindədi,
"Bir yandan boşalır, bir yandan dolur".
Hər ötəri dərdə kövrəlmək olmaz,
Dərd odur əlacsız,
dərmansız olur.

... Anamın tez gəldi əcəl karvanı,
Tale ona qarşı amansız oldu.
Qəfil elə dərdə düçar oldu ki,
Əlacı dünyada dərmansız oldu.

"Tanrı dərd veribsə, dərman da verib",-
Bu fikir ağlıma çox vaxt girmədi.
Bu kəlam doğrusa, Tanrı anama,
Bəs niyə dərd verdi,
dərman vermədi?

Günahı nə imiş yazıq anamın?
Bu qəsdlə, qərəzlə barışmır könlüm.
Məni yetim qoyan belə həyatın,
Daha sevincinə qarışmır könlüm.

Hər dərdi çəkməyə hazırmı ürək?
Aman,
qəfil gələn dərdlərdən aman.

Deyirəm dünyada nə dərd olaydı,
Nə də ki, o dərdin əlacı dərman.

Xoşbəxtdir dərdinə dərman olanlar,
Əlac varsa, gül də vədəsiz solmur.
Hər ötəri dərd də hələ dərd deyil,
Dərd odur heç yerdə dərmanı olmur.

*20.12.1994.*

## FƏLƏSTİN QAÇQINLARINA

Canına daraşıb aclar bu yerin,
Fələstin elinin kədər yası var.
Burdan diyar-diyar köç edənlərin,
İndi bircə vətən təmənnası var.

Dönüb viranəyə torpaq büsbütün,
Sönüb oba-oba ocaqları da.
Dərdi sinələrdə boy atan yurdun,
Gözlərə köçübdür bulaqları da.

Fələstin övladı, ötüşmədə gün,
Səfərin ömürlük bir səfərdimi?
Vətəndən bir ovuc torpaq kötürün,
Barı saxlayasız təbərrik kimi.

Qərib son nəfəsdə göz necə yumsun?
Xəyalı dolanar ana torpağı.
Qəbri qürbət eldə necə uyusun? –
Ruhu qürbət eldə uyumaz axı!

Uzaqda yaşamaq ürək ağrıdır,
Vətən hədəf olub qəmli gözlərə.
Dünya qürbət adlı sığınacaqdır,
İndi fələstinli vətənsizlərə.

*1981.*

## MƏN TORPAQ ADAMI İDİM...

***Yurdundan qovulmuş bir fələstinli didərginin dilindən:***

Mən torpaq adamı idim,
Vətənimdən qovulmuşam.
Düşüb qürbət çöllərinə,
Yurdsuzluqdan qovrulmuşam.
Qovrulmuşam,
                    ilan kimi
Dil çıxardıb
                    qıvrılmışam.
Özgə yerdən vətən olmaz,
Ürək çəkmir yad ocağı.
Ruhuma da qaxınc olar,
Qürbətin minnət torpağı.

Mən torpaq adamı idim...
Torpağın nazın çəkməklə,
                    tum əkməklə,
                    becərməklə,
Tər tökməklə,
                    keçib günüm.
O günlər daha xəyaldı,
Bu qəmsə ömrümü əyər.

Səninçin demirəm hələ,
Vətən,
vətən, torpağından
Bir ovuc qismət payımçın,
İndi burnumun ucu göynəyir.
Nəfəsim çıxanda isə
Ovcumun içi göynəyər.

*1981*

## RUH BƏDƏNƏ QAYIDANTƏK...

***Y.Ərafat və İsrailin baş naziri İ.Rabin arasında bağlanan sazişə əsasən uzun bir vaxtdan sonra Qəzzə bölməsi və ona bitişik bəzi ərazilər Fələstin muxtariyyətinə qaytarılırdı.***

**(qəzetlərdən)**

Başı bəlalı
Fələstin diyarı,
Torpaqlarını geri alır
işğalçılardan –
hissə-hissə, yarı-yarı.

Bu mübarizənin önündə gedir
bütöv amallı,
Petefi* timsallı
Yasər Ərəfat.

Uzun ayrılıqdan sonra
geri alınırdı
Qəzzə bölməsi.

---

***Petefi** – inqilabçı macar şairi

Gözün aydın, Fələstin torpağı,
Gözün aydın, fədailər ölkəsi.

O gün Qəzzədə
qurulurdu yeni büsat,
Dirçəlirdi yeni həyat.
O günün sevinci
ürəklərdə artmışdı
qat-qat.
Xətaiyə oxşatdım Ərəfatı...
Xətai Təbrizə
Qalib kimi qayıdanda
"Ruh bədənə qayıdır" - demişdi xalq.
Sevinci gözündə qaynayırdı
Damarındakı qantək.
Ərəfat Qəzzəyə qayıdırdı,
Ruh bədənə qayıdantək.

*29.07.1994.*

## HARA BELƏ, QARAÇILAR

***Səfər düşüncələrindən***

Torpaq yuyunur yağışla,
Torpaq üz-üzədir qışla.
Bu payız köçhaköçdümü,
Bu tələsik yır-yığışla,
Hara belə, qaraçılar?

Burda sizdən küsən ki yox,
Könlünüzə dəyən ki yox.

Sizə bu geniş dünyada,
Üz tutmağa vətən ki yox,
Hara belə, qaraçılar?

Nədən ruhunuz kövrəldi,
Burda ki, hər şey gözəldi.
Özgədən xoş xəbər verən,
Öz falınız nəhsmi gəldi,
Hara belə, qaraçılar?

Qəlbinizə daman nədi?
Qara gözlər qüssədədi.
Bu vaxtsız yağan yağışdan,
Yoxsa bağrınız göynədi,
Hara belə, qaraçılar?

Bu yerlər rahat deyilmi,
Burda həyat şad deyilmi?
Bu köçəri, səyyar ömrün,
Yolu narahat deyilmi,
Hara belə, qaraçılar?

Gəlişiniz heç oldumu,
Ümidiniz puç oldumu.
Taledən qismət payınız,-
Təkcə köçhaköç oldumu
Hara belə, qaraçılar?

Nə tez yolunuz dəyişdi,
Bu nə gəliş, nə gedişdi.
Köç etmək sizdə adətdi,
Yoxsa ömürlük vərdişdi,-
Hara belə, qaraçılar?

Bu nə ağır talesizlik?
Nə yurdsuzluq, nə elsizlik...
Vətən ki yox, axı sizi
Hara çəkir vətənsizlik,
Hara belə, qaraçılar?

* * *

Taleyimi üzümə
Əllərimdən oxumaqdansa,
Gözlərimdən oxu, qaraçı.
Əlimə "çörək ağacı" kimi baxmaqdansa,
Ovcumda xoş cizgilər axtarmaqdansa,
Falına inanım deyə,
Gözlərimin mavi,
İfadələrini oxu, qaraçı.
Gözümdədir ömrümün acıları,
Dünyaya tanış gələn
Taleyimin dərd-səri.
Gözlərimdən oxu, qaraçı
Ürəyimdən keçənləri.
Bilirəm,
Əllərimin səxavəti,
Ömrünün yaşamaq ümididir.
Falın da elə
Halı ümidsiz xəstəyə,
Deyilən xoş söz kimidir,
Taleyimi üzümə
Gözlərimdən oxumaq olar.
Gözlərimi oxu, qaraçı
Falına inanım deyə!

*15.08.1984.*

## ÜNVANSIZ YAŞAMAĞA NƏ VAR

*Mən ünvansız yaşayıram*
**F.QOCA**

Yurdlarından uzaq,
Neçə illərdən bəri,
Ünvansız yaşayırlar,
Yer üzünün qəribləri,
Yer üzünün vətənsizləri.
Ünvansız yaşayırlar
Fələstinli, livanlı,
Didərgin anaların,
Didərgin körpələri.
Taledən qismətləri
qəmdi, kədərdi,
Hamısının da ürəyində
Vətənsizlik dərdi,
Ünvansızlıq dərdi.

Günün qaraçı günü deyilsə,
Hicran qəlbinə düyün deyilsə,
Ömür yollarında yanan
Yad göyün günü deyilsə,
Ünvansız yaşamağa nə var...

Ana yurdun dayağınsa,
Sığındığın ocağınsa,
Başının üstündə əgər,
Dalğalanan bayrağınsa,
Ünvansız yaşamağa nə var...

Udduğun vətənin havasıdırsa,
Qanında yurdunun mayasıdırsa,

Hara getsən, üz tutduğun
Əzizlər, doğmalardırsa,
Ünvansız yaşamağa nə var...

Ünvansız yaşamağa nə var,
Bu torpağın adamları,
Dar gününə yetəndirsə.
Ünvansız yaşamağa nə var...
Olduğun yer vətəndirsə...

*26.03.1983.*

## ÜRƏYİMİ ÇOX İNCİTDİM...

İşığını şeirə verdim,
Gözümə yazığım gəlir.
Qapılarda çox utandı,
Üzümə yazığım gəlir.

Yalandan "vətən", "xalq" deyən
Kəslərə söz qoşmadım mən.
Halal haqqına yetməyən,
Sözümə yazığım gəlir.

Ömrü söz üstə əritdim,
Boş sevdaya qurban getdim.
Ürəyimi çox incitdim,
Özümə yazığım gəlir.

*28.03.1996.*

# SEVDALI BİR YAZ GÜNÜ

## YAZ Kİ, GƏLDİ...

Yaz ki, gəldi... dövrü gəlir xoş çağın,
Üzü gülər otun, gülün, yarpağın.
Yaz ömrünə həsrət çəkən torpağın,
Görüşünə yenicə yaz gələcək.

Sonu yetib quzeydəki buz, qarın,
Yaxasına gül düzülüb yolların.
Bulaq üstə yönü düşsə qızların,
Necə cavan əlində saz gələcək.

Yer bürünər çəmən, çiçək ətrinə,
Yer sığınar yaşıllığın çətrinə.
Şair demiş: "Bənövşənin xətrinə,
Kol dibinə iz düşər*, iz gələcək".

Bülbül olar təbiətin ozanı,-
Heyran edər söz qoşanı, yazanı.
Nizamlanar bu dünyanın mizanı,
Gündüzüylə gecəsi düz gələcək.

Bulaq sızar... daşlar kəsər önünü,
Dağlar qızı ovuclar buz suyunu.
Bu dağlara üz tutanın yönünü,
Duman kəsə, ya sərt ayaz – gələcək!

Yer isinər kəsəyindən daşacan,
Quşlar ötər dayanmadan bircə an.
İndən belə təbiətdən qışacan,
Həzin bir səs, xoş bir avaz gələcək.

*14.02.1994.*

---

* Fikir İlyas Tapdığındır

## VƏTƏN SEVGİSİ

Bu vətən üzünə gülür dünyanın,
Oxşayır torpağı bahar əli də.
Vətən torpağıdır hər bir insanın,
Əzəl mənziliylə, son mənzili də.

Sıyrıldı keçmişin toranlığından,
Döyüşdü, yadlara kölə olmadı.
Ürəklə torpağın yaxınlığından,
Bu yurdun daşı da bizə doğmadı.

Vətənmiş ürəyi isidən ocaq,
Könül şadlığı da onsuz itənmiş.
İndi anlamışam bir ovuc torpaq,
Qərib gözlərində niyə vətənmiş.

Vətənsiz olanın qəlbi dağlıdır,
Kədəri tükənməz qərib gözlərin.
Qəriblik dünyanın əzablarıdır,
Paylanıb ömrünə vətənsizlərin.

Tarixi sabaha çəkər özüylə,
Havası müqəddəs, suyu müqəddəs.
Uyuşmaz qürbətə, ana südüylə,
Ruhuna vətəni qovuşduran kəs.

Mehrini duyaram doğma yerlərin,
Vətən şöhrət imiş, ucalıq imiş.
Bizi vətən deyə cəzb edən yerin,
Cazibə gücü də doğmalıq imiş.

## SEVDALI BİR YAZ GÜNÜ

Sevdalı bir yaz günü,
Yazın bir qönçə gülü,
Adamda huş-baş qoymur.
Allahın gül-çiçəyi
Ətriylə bihuş edib,
Unutdurur hər şeyi,
Dərdi, qəmi, kədəri, –
Adamda yaddaş qoymur.
Belədə bir qadının
Ətirli donuna bənzəyir,
Torpağın yaşıl tülü.
Sevdalı bir yaz gülü,
Aşiq edib bülbülü.

Yaz havasında
Könüllər sinədə
Qərar tutmayantək,
Nar öz şirinliyindən
Qabığına sığmayantək,
Ruhum canıma sığmır,
Sevdalı bir yaz günü,
Ruhum canımdan bezir,-
Ruhum çöl-bayır gəzir.

Yerin rayihəsinə uyub
Ruhum məndən bezəndə,-
Qəfəsə sığmayan quştək,

Heç cür canıma sığmır.
Bir çiçəyin eşqinə
Ruhum uçub gəzəndə
Sevdalı bir yaz günü,
Yaxşı ki, canım çıxmır.

*19.11.1993.*

## YAZ GÜNƏŞİ

Dizin qatladı qışın.
Gör necə də nurludur:-
Onunçun da qədəmi,
Bu qədər uğurludur.

## QISQANC BÜLBÜL

Qızılgüllər içində,
Seçmişdi o,
                bir gülü.
Yanında səhər, axşam,
Görən nəydi könüldən
Oxutduran bülbülü?
Yəqin düşünürdü ki,
Kimin belə gülü var.
O ötürdü,
              bilsinlər
Bu gülün
              bülbülü var.

*01.02.1990.*

## ELƏ YERDƏ YAŞAYIRAM...

Qızıl günəş zirvədə buz qoparır,
Şimşək səsi əsrin qeylü-qalıdı.
Dağlar müdrik qocalara bənzəyir,
Bu dünyanın gərdişindən halıdı.

Meşə həzin – qucağında qızınım,
Bəyaz duman çadırında uzanım.
Buz bulaqlar – sədəf sazlı ozanım,
Yaşıllıqlar – göz oxşayan xalıdı.

Çoban çəkər burda zilə tütəyi,
Bulud gəlib bürüyəndə ətəyi.
Yal-yamaclar yerin güllü örpəyi,
Təpələr də əzəmətli qaladı.

Lalə – yerin alov dili, yanğısı,
Şeh – gül üstə nurlu günəş damcısı.
Dağ cığırı – bir igidin qamçısı,
Qövsi-qüzeh – kəhərinin yalıdı.

Xoş olursan dindirəndə hər kimi, –
Söz-sovuyla unutdurar dərd-qəmi.
Adamları nəzakətli, səmimi,
Adamları hamısı üzüyoladı.

Qayalar – mərd, yenilməzlər cərgəsi,
Günəş silər üzündəki çən, sisi.
Azərbaycan – gözəlliklər sərgisi,
Lənkəran – ilk baharın timsalıdı.

## QOŞMA

Üfüqlər nur səpir qövsi-qüzehə,
Çiçəklərin ətri hopubdur mehə.
Günəşin telləri bükülüb şehə –
Sayrışırdı ulduzsayağı yerdə.

Çaylar – dərələrin susmaz avazı,
Yollar – sarı simi, bulaqlar sazı.
Hüsnünə min naxış bəxş edən yazın,
Fırçası əlində, boyağı yerdə.

Dağlar... çal-çağırmı düşüb qanına,
Sükutu xəncərtək qoyub qınına.
Günəş inci səpir ağ dumanına,
Bəzəyir yaxını, uzağı yerdə.

Bulud qayaların qonub qaşına,
Nur damır torpağın hər qarışına.
Bahar naz-nemətin tökür başına,
Gül açır yurdumun qucağı yerdə.

## TORPAĞIN ALQIŞI

Günəş oxşayırdı yaşıllıqları,
Quzeylər ovcunda sıxırdı qarı.
Qartal da uçurdu zirvəyə sarı-
Şəlalə taxtında yəqin tək idi.

Duman seyrəlirdi,
                    ötüb keçəcək,
Şəfəqlər gün boyu yeri öpəcək.

Sanki görüşünə kimsə gələcək,
Lalə al donunda nə göyçək idi...

Çöllərin də bahar töhfəsi vardı,
Bülbülün oxumaq nəşəsi vardı.
Hər gülün ayrıca guşəsi vardı,
Tamaşa etməyə göz gərək idi.

Tutulub günəşin nur yağışına,
Bulaq oxşayırdı üzük qaşına.
Bulud zirvələrdən çöküb başına-
Meşə anam kimi "ağbirçək" idi.

Burda yaz şehinə batıb yoxuşlar,
Mamır köynəyini geyinib daşlar.
Dünyanı nəğməyə tutmuşdu quşlar-
Torpağın alqışı gül-çiçək idi...

## DAĞ YOLUNDAN LÖVHƏ

Zirvəyə dırmanan haça dağ yolu...
Səma da aydındı yaz səmasıtək.
Qürub şəfəqində işıldayırdı
Dağ yolu ildırım boşalmasıtək.

*12.01.1994.*

## MEŞƏDƏ

Kibritsiz qalmışdım meşədə... gəzdim,
Çoban yaylağına yol axtarırdım.
Atəşböcəyini bilməyib əzdim,
Barı siqarımı alışdırardım.

*12.01.1994.*

## DƏMİRAĞAC

Talış meşələrində,
Çoxdu nadir bitkilər.
Onlardan birinə də,
Dəmirağac deyirlər.

Görəni düşündürər,
Sual dolu fikirlər:
Dəmirdənmi,
adına
Dəmirağac deyirlər?

Ağacda bərkliyə bax,
Bir möcüzədir,
sirdir.
Gövdəsinə əl vursan,
Sanarsan ki, dəmirdir.

Bu yerdə bitməyi də,
Görünür, çox qədimdir.
Dəmirdən olmasa da.
Dəmir qədər möhkəmdir.

Yerdən "dördəlli" tutan,
Kökü düyün-düyündü.
Budaqlar bir-birinə,
Sarmaşıb qolboyundu.

Gövdəsi zireh geymiş,
Bir igidi andırar.
Ona balta çalanın,
Baltasını sındırar.

Görənlər dəmir kimi,
Bərkliyini duyublar.
Onunçün da adını,
Dəmirağac qoyublar.

*13.03.1995.*

## QARA KİTABA YAZILSIN

Ovunu əlində tutmuşdu ovçu,
Baxıb sevinirdi məharətiylə.
Vəhşi bir quzğuna oxşatdım onu,
Ürəyim döyündü qəzəb, kin ilə.

Oğul istəyirdim onu kiridə,
Ovcunda cüyürün al qanı idi.
Onun camaata göstərdiyi də,
Deyirəm cüyür yox, vicdanı idi.

Əməli xoş gəlir yəqin özünə...
Gör hansı hiss ilə öyünürdü o.
Yaraqlı-yasaqlı mənim gözümə,
Bir vəhşi donunda görünürdü o.

Nə deyim təbiət düşmənlərinə...
Yox olur qoynunda bəzi töhfələr.
Vəhşilər artdıqca azalır yenə,
Qırmızı kitabda boş səhifələr.

Gəlin təbiətə bir az göz qoyaq,
Qıraq tüfənglərin qundağını biz.
Nadir heyvanların bir vaxt almayaq
Qırmızı kitabdan sorağını biz.

Ceyranlar bu yerdən köç edib hara,
Kaş qolu sınaydı insafsızların.
Bir qara kitab da açılsın, - ora,
Adları yazılsın bu qansızların.

## QAR ETÜDÜ

Qar yağır,
        təbiət büsbütün qardı,
Budaqlar qar ilə yüklənirdi hey.
Böyük bir ələyə dönmüşdü göylər,
Qar da ki, bir ucdan ələnirdi hey.
Yağır asta-asta,
                yağır aramla,
Xoş gəlir bu qarın aramlığı da.
Yerə qar örtüyün sığalı dəydi,
İtdi dağ yolunun qıvrımlığı da.
Çayların dilində sükut qıfılı,
Donmuş məcrasında sular yatırdı.
Saflığı azalan havamıza qar -
Sanki həzin-həzin saflıq qatırdı.
Könüllər dolurdu saf duyğularla,
Təmizlik ürəyə hopurdu qantək.
Təkcə təbiət yox,
                bu yağan qarla
Ürəklər özü də saflaşır deyək.

*24.02.1990.*

## NEFT DAŞLARI

Dağların
qaya ətəyindən tuta-tuta,
Zirvələrə qalxmaqdan
Yəqin bezikib Bakı.
Yoxsa, tufanlı dənizə də
hökmran kəsilməkdir
indi xəyalındakı?
Üfüqlərə sarı
döşəyib yollarını,
dənizin maviliyinə atır
polad addımlarını.
... Estakadalar
nəhəng balıqçı tilovudur sanki.
Dalğaları bir-biriylə
tutuşduranda fırtına,
dirək qarmaqlarında
balıq tək çırpınar,
dartınar Xəzər.
Axşamlar nə fırtına,
nə də tufan qorxusu
gəlməz eyninə.
Rahat-rahat
uyuyar şəhər.
Günbəgün
binaları boy atıb
üfüqlərə millənər.
Gecələr başı üstə
işıq çilçıraqları -
bayraq kimi yellənər.

## XƏZƏR BALIQÇILARINA

Günəş çıxıb sularda
Qarışanda zər-zərə,
Balıqçı gəmiləri
düzülüb səf-səfə
çıxarlar səfərə.
Balıqçılar üfüqləri
mavi paltar tək
geyinərlər əyninə.
Əzmini qıra bilməz
nə tufan, nə qasırğa
qorxu gəlməz eyninə.
... Qəlblərində təlatüm,
gözlərində nağıllaşmış dəniz!
Nəğməsini dinlədikcə Xəzərin
Üzərlər
sərvətlərinin sorağında.
Gəzərlər gecə-gündüz
Balıqçılar Xəzərin
Nemətli "torpağında".

## SON YARPAQ

Budaqda son yarpaq,
Sapsarı saralmışdı.
Qanı çəkilmişdi
yanağından.
Yaşamaq necə şirinmiş...
Xəzan küləyində də,
Üzülmək istəmirdi
Budağından.
Ömrün son ucunda belə,
Qurtarmaq istəyirdi özünü
küləyin caynağından.
İnsan ömrü də belədir,
Yaşadıqca şirin gəlir.
Yaşadıqca insan,
yaşamaq istəyir.
Fələksə işini görür...
Həyatın keşməkeşləri
gün gəlir,
qəddini əyir.
Qocalığında insan,
o son yarpağa bənzəyir.

*06.11.1990.*

# ÜZÜN QİBLƏGAHDI MƏNƏ

## CÜT QARALTI

***M.Əbilova***

Ay kəndin başında ucalan, çinar,
Necə də bəxtəvər günlərin vardı.
Dönmüşdün gizlicə görüş yerinə,
Altında elə ki, qaş qaralardı,
Bir cüt də qaraltı peyda olardı.

Sənə məhrəm idi o cüt qaraltı,
Sözü-söhbətləri gizli qalardı.
Onda eşitdiyin quş səsi deyil,
Yalnız sevgi dolu pıçıltılardı.

...Deyən tez ötüşdü illər,
                                        fəsillər.
Daha boş görünür çinarın altı.
– Ay kəndin başında tək qalan, çinar,
Hanı bəs altında o cüt qaraltı?

Niyə ayağını kəsdilər səndən,
Sevgiylə ötüşən günlərin hanı?
Başının üstündən illər ötəndən
Altında görən yox cüt qaraltını.

Yəqin əhdə yetib,
                        yuva qurublar,
Nə bir səs-səmir var, nə bir pıçıltı.
Daha bir kimsəni gözləmə, çinar,
Daha ələ düşməz o cüt qaraltı.

*09.12.1993.*

## İLAHİ PIÇILTILAR

Kəndin bulaq yolu...
                    axşam düşəndə,
Dolardı cüt gəzən qaraltılarla.
Bu bulaq yolunu keçmişəm mən də,
Bir zaman ilahi pıçıltılarla.

Kəndin bulaq başı...
                    görüş yerimiz,
Burda görüşərdi neçə "gözaltı".
Sonra...
          cavanların gizli söhbəti,
Sonra...
          dodaqlarda şirin pıçıltı.

Bulaq başınacan uzanan yolu,
Çox vaxt birnəfəsə mən addamışam.
Bir qaragözlüyə öz sevgimi də,
İlk dəfə bu yolda pıçıldamışam.

Ata-anasından gizli sevənlər,
Bu yoldan ötərdi səssiz, yavaşca.
Burda sevgisinə xilaf çıxanın,
Hörməti yox idi bir qara daşca.

... Sonra...
          sevda dolu şirin pıçıltı,
Könüldən silərdi dərdi-səri də.
O layla avazlı pıçıltılarla,
Yatırmaq olardı körpələri də.

Kəndin bulaq yolu...
                    axşam düşəndə,
Dolardı cüt gəzən qaraltılarla.
Bu sevda yolunu keçmişəm mən də,
Bir zaman ilahi pıçıltılarla.

*27.12.1993.*

**SEVDA**

Gözlərimin yuxusunu çəkib,
Yenə eşq, yenə sevda.
Ürəyimdə
          yuva qurmaq istəyir,
Yeni eşq, yeni sevda.
Bu dünya
          sevdalar yoluymuş...
Ancaq,
"İki sevda çəkənlərin
                    cəzası var", –
Bunu gərək unutmasın
                    sevən adam.
Ağlıma özgələr gəlməz.
Özgə eşq,
          özgə sevda
Ürəyimə girə bilməz.
Mən yad sevdalara yadam.
Mənə əzizdir öz eşqim,
Mənə əzizdir öz Sevdam.

*20.10.1996.*

## QARA GÖZLƏRİN YİYƏSİ

*Gözlərinə de ki, girməsinlər yuxuma*
**R.RZA**

Qara gözlərin yiyəsi,
Çıxma qarşıma.
Günün günorta çağında
Od ələmə başıma,
Acı qatma aşıma.
Gözlərinin aşiqiyəm,
Ancaq ki, kənd uşağıyam...
Siz yaşayan mərtəbələrdən də
Çox-çox aşağıyam.

Qara gözlərin yiyəsi,
O gözlərin alovuna
                    sıxma məni,
                    yaxma məni.
Günün yandıran çağında,
Tab hanı
          kənd uşağında.

Gözlərinin önündə mən,
çox vaxt
itirmişəm özümü.
Dilim tutulan kimi olub,
Deyə bilməmişəm
          üç kəlmə sözümü.
O gözlərin sirrini mən,
dərsini mən,
Bilməyin ki, anmamışam...

O gözlərin həsrətindən
yandığımtək
        yanmamışım.
Yaşamaq yanmaqmı elə?
Dərdə qurşanmaqmı elə?

Qara gözlərin yiyəsi,
"Gözlərinə de ki,
girməsinlər yuxuma".
O gözlər yuxumda da
Çıxır mənim axırıma.

*20.10.1996.*

**QAYIT**

Nə vaxtdır
Küsüb getmisən.
Bilirəm,
Sözlərim xətrinə dəyib.
Tənələrə dözməyib,
Ocağımı tərk etmisən.
Kimsəsiz yetim kimi
                tək-tənhayam.
İndi
dörd divarla üz-üzə,
Həsrətinlə baş-başayam.
Bu ayrılığa dözəcəyimə
inamım yox.
Bu ayrılığı
        çətin yaşayam.
Məni kimsəsizliyimə bağışla...

Dərdimi deməyə adamım yox,
Dərdimi deyəmmirəm
heç kimə.
Qayıt...
peşimanam...

Peşimanamsa,
İnana bilərsən sevgimə.

*28.02.1995.*

**AD GÜNÜM**

Başımın üstünü
Ayrılıq alandan,
Otağıma
tənhalığın soyuğu dolandan,
Kimsəsiz
yetim kimiyəm, Tanrım, –
Qapımdakı itdən də betər
tənha yetim.
Belədə halımı soranlar yox,
Belədə başıma
yığışanlar yox.
Belə tənhalıqda
başını itirər hər kim.

Bu gün ad günümdür,
qapımı döyəsi
Nə dost var, nə qardaş, nə həmdərd.
Dövrəmdə vəfalı dost tək,
Hərlənir ancaq
qəm, kədər, dərd.

Bir də qapımdakı itim.
Nə anam var
        ağlamaqçın
        köksünə baş qoyum.
Nə də bir ümid var,
Minbir istəyimin
birinə heç olmasa yetim.
Tənhadan tənhayam...
Belə tənhalıqda
Ad gününü keçir görüm,
Kimsəsiz yetim!

*10.03.1995.*

## SƏN GEDƏLİ

Sən gedəli
gözlərimin giləsində,
üzümün kölgəsində
daldalanır qəm.
Sən gedəli
Dünyanın ən adi sevincinə də
həsrətəm.

Bu bayram axşamı
Elə bil kimsəsizəm.
Səliqəsiz geyimimlə,
Ütüsüz köynəyimlə,
Dərdimlə, qəmimlə
Bilinir ki, sənsizəm.
Üz-gözümdən
sənsizlik oxunur,
kimsəsizlik oxunur.

Sən gedəli həsrətəm,
İki balamın səsinə.
Dönmüşəm yer üzünün,
Boynubükük bənövşəsinə.

Bayram axşamlarının
təkliyi lap əzabdı.
Elə bil dünyanın dərdləri,
gəlib evimdə azıbdı.

Bu Novruz axşamında,
üç şam yandırmışam
adınıza.
Bu üç şamla birlikdə,
yanıram həsrət odunuza.
Bu ayrılığı, Tanrım,
kim çıxartdı qarşıma.
Bu ayrılığın harası
yaraşırdı yaşıma.
Ötən günlər qayıda kaş...
Sənli günlərimin sevincində,
Pərvanə şama yığışantək,
Balalarım yığışa başıma....

*14.03.1995.*

## TANRI DUASI

Eşqim yaxınlaşır vüsal ömrünə,
Könlümün səsinə bir qulaq asın: –
Bu eşqin atadan, anadan öncə,
Tanrıdan diləröm xeyir-duasın.

Tanrıdan diləröm xeyir-duamı, –
Onsuz keçən ömrün mənası yoxdu.
Kiməsə xoşbəxtlik gətirə bilməz,
O eşq ki, Tanrıdan duası yoxdu.

*04.02.1995.*

## GÖZLƏRİMƏ İNAN

Gözlərim nə yaman hüsnünü tutdu,-
Bir də özgəsinin sehrinə çıxmaz.
Hər gün baxışlarım izləyir səni,
Gözlərim tutanı
                    könlüm buraxmaz.

Mənim gözlərimə inanır könlüm,
Bilir hər ötənə gözlərim baxmaz,-
"Hər gördüyünə də su kimi axmaz" .
Mənim gözlərimə inan, əzizim,
Gözlərim tutanı könlüm buraxmaz.

*08.01.1995.*

## ETİRAF

Bir ötəri eşqdən üzüm gülmədi,
Yaş ötür,
        duyuram yaş ağrısını.
Taylı ki, tayını tapa bilmədi,
Çəkər ömrü boyu baş ağrısını.

Nəyimə gərəkmiş məni aldadan,
Bir eşq ki, yolunda mən yaman oldum.
Xoşbəxtlik umurdum mən bu sevdadan,
Amma gün yetişdi, peşiman oldum.

Giley-güzar düşüb bizim araya,
Nələri çəkirəm, bilmir özgələr.
"Mən dərdimi büküb, atdım dəryaya,
Balıq bilməsə də, xalıq ki, bilər".

Taleyin hökmünə dözürəm hələ,
Çox sirri də üzə vura bilmərəm,
Ömür yarı olub, day indən belə,
Durub təzə sevda qura bilmərəm.

Marığa yatıbdır nifaq güdənlər,
Açıb-ağartmağa dəyməz bu eşqi.
Bir vaxt sevgimizə qibtə edənlər,
Daha duyuq düşüb, öyməz bu eşqi.

Dolub ürəyimə qəm yığın-yığın,
Hardasa səhv edib, batdım günaha.
Sevib-sevilmədən yuva qurmağın,
Ağrı-acısını duyuram daha.

Bir ötəri eşqdən üzüm gülmədi,
Yaş ötür,
        duyuram yaş ağrısını.
Taylı ki, tayını tapa bilmədi,
Çəkər ömrü boyu baş ağrısını.

*26.12.1996.*

**KÖNÜL, NİYƏ QƏMLİ OLDUN**

Ruhdan düşən anın varmış,
Eşqdən ah-amanın varmış,
Ayrılıq zamanın varmış,
Könül, niyə qəmli oldun?

Kim ömrü eşq ilə ölçdü,
Dedi: "eşqsiz ömür puçdu"?
O qız köçdü,- yermi uçdu,
Könül, niyə qəmli oldun?

Boş kədərdən kar aşmır heç,
Sevən qəmlə barışmır heç.
Od oğluna yaraşmır heç,
Könül, niyə qəmli oldun?

Bir sevda ki, sonu puçdu,
Ona bağlanmaq da heçdi.
O qız köçdü, – yermi uçdu,
Könül, niyə qəmli oldun?!
Könül, niyə qəmli oldun?!

*15.02.1996.*

## YOX ELƏ BİR TƏSƏLLİ DƏ...

Yadımdadır
Bir rus mahnısının sözləri:
"Həyatın gətirməsə,
                    gətirər sevgidə".
Bu mahnı
                    bir xoş təsəlli kimi
Çoxuna unutdurub
                    dərdi-səri.

Görmüşdük ki,
Sevgisi puç olanın
həyat məlhəm qoyub yaralarına.
Həyatı gətirməyəninsə,
sevgi gəlibdi karına.
Bəxti üzünə gülməyənin
Dərdi sığmaz min kitaba.
Həyatı gətirməyənin
Sevgisi də gətirməyəndə
yaşamaq dönür əzaba.

... Giley etmək deyil peşəm,
Giley-güzardan bezmişəm.
Bu dünyanın ətəyindən
Daha əlimi üzmüşəm.

Yox elə bir təsəlli də,
Sınıq könlümü kiridə,
Dərd-qəmi mənə tərgidə.

Mən bəxti üzünə
                    gülməyənlərdənəm.
Mənimki nə həyatda gətirdi,
                    nə də sevgidə.

*18.08.1994.*

## SƏN GƏLİN KÖÇÜRDÜN

Sən gəlin köçürdün
hay düşdü elə,
Gördüm çöhrələrdə nur var, sevinc var.
Çalanlar tək mənə "Vağzalı" ilə,
Hamıdan xəbərsiz "toy tutmuşdular".

Bilmədim qədrini, bilmədim onda,
Bir nisgil yol açdı könül tarıma.
Sən gəlin köçəndə, eh, "Vağzalı" da,
Sanki od yaxırdı günahlarıma...

Nə bilim, bəlkə də deyilmiş qismət,
Bizim yollarımız ayrılmalıymış.
Səni ər evinə köçürən həsrət
Mənim öz ömrümə pay olmalıymış.

Çalanlar qəlbimə, görən, bildimi
Sən adlı bir həsrət simi sardılar...
İnsafsızlar o gün öz anan kimi,
Mənim də anamı ağladırdılar.

Əfv edə bilmədin mən "vurulmuşu",
Kim səni öyrətdi könül qırmağa?

Sən öz yuvasının köç edən quşu,
Köçürdün özgəylə yuva qurmağa.

Vaxtında qədrini biləydim gərək,
Könlüm bu gileydən bezərmi görən?
Bir vaxt həsrətinə dözməyən ürək,
İndi yoxluğuna dözərmi görən?

Sən gəlin köçürdün... hay düşdü elə
Sevənlər özünü unutmuşdular.
Çalanlar tək mənə "vağzalı" ilə,
Hamıdan xəbərsiz "toy tutmuşdular".

## ÜZÜN QİBLƏGAHDI MƏNƏ

***Haqq görən bir göz gərək, görsün səni, ey məhliqa,***
***Yüz baxa, görməz xudanı, göz əgər xüdbin ola.***

**NƏSİMİ**

Qəm çəksə də bədbin deyil,
Ürəyimdə min dözüm var.
Gözlərim də xudbin deyil,
Tanrını görən gözüm var.

Səni Tanrı göndəribdi,
Gəlib yoluma çıxmısan.
Üzündə Tanrını gördüm,
Bildim ki, göy adamısan.

Göy adamı mələk olar,
Elə mələk kimi varsan.

Sən o mələk üzünlə də,
Ömrümə hakim olarsan.

Üzündə Tanrını gördüm,
Bu sirrin agahdı mənə.
Üzünə mən səcdə etdim,
Üzün qibləgahdı mənə.

*17.01.1996.*

## SEVGİ ÇƏKİŞMƏLƏRİ

"Çəkişməsən bərkişməzsən",-
Belə söyləmiş babalar.
Biz küsüşüb çəkişəndə,
Dedik bərkişərik... nolar!

Dediyini yaxşı bilib,
Nə deyibdisə babalar.
Babaların haqq sözünə,
Darda da güvənmək olar.

Bu eşqdə dəbdi, nədisə,
Küsüşmüşük biz xeyli var.
Çəkişmək bərkişməkdirsə,
Demək, sevgidə xeyri var.

*08.01.1994*

## SƏNİ QINAMIRAM

Sən getdin özgəyə... təəssüf etdim,
Fələk mən sayanı başqa cür saydı.
Gedəndə birinə gedəydin barı,
Özünə, eşqinə layiq olaydı.

Səni qınamıram belədə ancaq,
Bu hissim gör nəyi yadıma salır: -
Ağacda armudun yaxşısı ki, var,
Meşədə həmişə ayıya qalır.

*14.11.1995.*

## AĞRISI QALACAQ

Duymayan nə bilər, sənsiz nə çəkir,
Başım bu sevdalı günümdə mənim.
Bağrıma məhəbbət odu düşəndən,
Sənin xəyalındı könlümdə mənim.

Demə keçməliymiş ilk eşq sınaqdan,
Hicran da güdürmüş bizi qıraqdan.
Adlaya bilmədim mən ayrılıqdan, -
Araztək durubmuş önümdə mənim.

Sevgim könlünə bənd sarı sim idi,
Bu simi könlündən qıran kim idi?
... İlk eşq ürəyimdə qəlpə kimidi,
Ağrısı qalacaq ömrümdə mənim.

*02.02.1995.*

## SEVMƏYİNDƏN QALMIR

Səni sevməyindən qalmır ürəyim,
Neçə dərd versən də fərqinə varmır.
Dözür hər zülmünə, hər əzabına,
Səni sevməməyi, çünki bacarmır.

*08.01.1995*

## İLK SEVGİ

Sevgisi hədəfdən yayınanların,
Qəmi gözlərindən silinmir çox vaxt.
Ömrün erkən çağı doğulan eşqin,
Sonu,
        aqibəti bilinmir çox vaxt.

İlk eşq məqsədinə az-az yetişən,
Cavan ürəkləri dağlayan eşqdi.
Çox vaxt qismətini əlndən verib,
Sonra da ardınca ağlayan eşqdi.

Heç kəsin səhvini bağışlamır da,
Daim qayğı sevir,
                daim də diqqət.
Xoşbəxtlik, bəlkə də, ilk sevgidədi,
O da çox ömürdə baş tutmur fəqət.

*14.02.1995.*

## BİLMƏDİM

Sən getdin,
        bu ayrılıqdan,
Özümə gələ bilmədim.
Biz ki, könül bağlamışdıq,
Nə oldu belə? – bilmədim.
Sevincimi bölənlərlə,
Dərdimi bölə bilmədim.
Bu həsrətin kədərini,
Gözümdən silə bilmədim.
Xoşbəxtliyim sən imişsən, –
Qədrini hələ bilmədim.
Sənsiz ölərəm demişdim,
Yaşadım, –
        ölə bilmədim.
Ancaq ki, eşqin dadını,
Mən sənsiz bilə bilmədim.

*22.01.1996.*

## AYRILIQ

Kaş ki, çıxmayaydım yoluna sənin,
Kaş ki, adlayaydım bir təsadüfdən.
O vaxt boş sevdadan qaçsaydım, indi
Pərişan olmazdım boş təəssüfdən.

Niyə bu sevginin yolayrıcında,
Mənə aydın oldun ayla-gün kimi.

Niyə lap əvvəldən görə bilmədim,
Səni mən əslində olduğun kimi.

Səninlə hökmünü gördüm həyatın, -
Gündə min üzüylə çıxdı qarşıma.
Bir vaxt şirinini uddum həyatın,
İndi də acısı gəlir ağzıma.

Mən rəva bilməzdim əyilməyini,
Bu eşqi sinəmdə diriltmək olmaz.
Vüqarı ayaqlar altına atıb,
Bu qədər sevgidən dil tökmək olmaz.

Axır ki, tanıdıq bir-birimizi,
Tanıdıq eşqində kim mətin deyil.
Sevgi ki, ürəkdə nifrətə döndü,
Elədə ayrılıq heç çətin deyil.

*17.01.1995.*

## PEŞİMAN OLMARAM

Ayrılırıq deyə qınama bəxti,
Nə olsun taledən yarımamışıq.
Biz ki, bu dünyanın xoşbəxtləritək,
Bir ulduz altında doğulmamışıq.

Ömrümüz bir eşqin yolayrıcında,
Bu yolayrıcında biz dərdi birik.
Elə yetişib ki, ayrılıq dəmi,
Biz onun hökmündən qaça bilmərik.

Nə lazım hər şeyi açıb-ağartmaq,
Əlimi əlindən üzüb gedirəm.

Mən bu ayrılığı tale oyunu,
Alın yazısıtək qəbul edirəm.

Peşiman olmaram bu ayrılıdan,
Daha dərd etmərəm tənhalığı da.
Sevinc gətirməyən bir məhəbbətin,
Kədərsiz ötüşər ayrılığı da.

*05.01.1995.*

## "BÜDRƏYƏN ATLAR"

"At təki
mənim altımda büdrəməsin," -
Belə demişdi bir vaxt
Qeyrətdən kasıb bir şair.
Vəzifə xatirinə,
Mənsəb naminə,
Eşitdiklərinə məhəl qoymadan,
Doğmalarını da saymadan,
Büdrəmiş bir at aldı.
O atla da
çox pillələrə,
çox mərtəbələrə ucaldı.

Özünə yaman güvənirdi,
Özgənin tənə sözlərinə:
"At təki
mənim altımda büdrəməsin" –
deyirdi.
Yadına da düşmürdü:

"İslanmışın yağışdan nə qorxusu".
Nə də vicdanını əzirdi,
Dost gileyi, umu-küsü.

Elə ki,
        günlər keçdi,
Hiss etdi ki,
        onun da altında
aldığı at
        Girəvə düşəndə
Büdrəyir.
Bildi ki, gecdi:
Bundan sonrakı ömrü
daha puçdu, heçdi.
Bilməzdi ona
aldığından zərbə dəyəcək.
O vaxt anlamamışdı,
Büdrəmiş üçün fərq etməz,
Sahibinin kimliyi: –
At büdrəməyə öyrəncəlidirsə
Gec-tez yenə büdrəyəcək.

*30.09.1996.*

## BƏYAZ SAÇLI QADIN

Bəyaz saçlı qadın,
Daha ehtiraslardan yoruldun,
Təkləndin,
        tək oldun.
Soyumada,
Azalmada,
Sevgi odun.
Bəyaz saçlı qadın,
Daha qolunda yox,
Bir kimsənin qolu.
Yolun
Elə tünlüklərdən keçib ki,
Sənə qənşər gələ bilmir,
Bir insan oğlu!

*10.02.1996.*

## VAY HALINA

***Köhnə təşbehlər üstə yazılmış zarafatyana şeir***

Qaşlar – kaman,
Kirpiklər – ox
Dili də ki, xəncərdi, –
Çəkilib hələləik
                ağız-qına.
Beləsinə tuş olanın
Vay halına!

## BEZDİRƏ BİLSƏ

Döyür pəncərəmi payız yağışı,
Yarpaqlar budaqdan üzülüb düşür.
Pəncərəm elə bil buz meydançadır,
Damçılar əl-ələ verib sürüşür.

Bu qəm yağışında səbrim daralar.
Yalqız ürəyimə həsrət güc gələr.
Bayırda yağışın güclənməyiylə,
Könlümün tənhalıq hissi güclənər.

Hanı bəs xoşbəxtlik, – gözlədiyim an?
Ömrün otuzu da ötüb sovuşub.
Xoşbəxtlik ömrümə hələ çatmayıb,
Yəqin ki, yolları dolanbac düşüb.

Xoşbəxtdir gözümdə adi bir quş da,
Əgər yuvasında o tək deyilsə.
Minnətdar olardım bu yağışa da,
Məni tənhalıqdan bezdirə bilsə...

*21.12.1986.*

## BURAX GEDİM, ŞƏHƏRLİ QIZ

*Burax gedim, ay işığı.*
**R.RÖVŞƏN**

Burax gedim, şəhərli qız,
Məni yolumdan eyləmə.
Üzü obamadır yönüm,
Məni obamdan eyləmə.

Burda ömür yolum qalda,
Günüm qərib düşən halda...
Orda anam gözü yolda,
Burax gedim, şəhərli qız.
Məni anamdan eyləmə.

Nə qazandım bu beş ili,
Başsız qoyub ev-eşiyi,
Mən anamın sonbeşiyi,
Sonbeşik yurdunda olar,
Burax gedim, şəhərli qız
Məni yurdumdan eyləmə.

Boz daşına da baş qoyum,
Orda havam, orda suyum...
Orda mənim köküm, soyum
Burax gedim, şəhərli qız,
Məni soyumdan eyləmə.

Mənsiz qəribsəmiş olar,
Orda yaxınlar, doğmalar.
Qalsam adım dönük qalar,
Burax gedim, şəhərli qız
Məni adımdan eyləmə.

Burax gedim, şəhərli qız,
Gözlərin batmasın qəmə.
Üzü anamadır yönüm,
Məni anamdan eyləmə
Burax gedim, şəhərli qız.

*26.10.83.*

## BU SEVDA QURUDACAQ BİZİ

Ömrün sevda çağlarıdı...
Səbrimizi dağlayacaq
Qanımızın qaynaması.
Qəlbimizi odlayacaq
Hərdən hürkək gözəllərin,
Yol ötəndə oğrun-oğrun
Üzümüzə boylanması.

Yaz gəldi,
        cana naz gəldi...
Bu qızların ədasından
Yaxşını, pisi seçməyə,
Gözlərimiz açılacaq.
Naz edən,
        yol gəlməyən,
Söz-sovu qəlbə dəyməyən.
Şıltaqlarla axşamacan
Dilimiz söz oynadacaq.

– "Ulu Tanrım, əlac elə,
Canı getdi nəvələrin"...
Tanrıya üz tutmaq işi,
Artacaqdır nənələrin.

Təklik didər qəlbimizi,
Vüsalımıza yetincə.
Bu sevda qurudacaq bizi,
Sevdalı gənclik havası,
Başımızdan çəkilincə...

## SON GÖRÜŞ

Üz-üzə durmuşuq yaz küləyində,
Ürəyim üzücü həsrətə düşüb.
Əksim də gözünün maviliyində,
Çırpınır... elə bir qürbətə düşüb.

Gəlmisən, görünür sovuşmur daha,
Taleyin başında oyun qurması.
Bəlkə ürəyinə uyuşmur daha,
Başqa bir sevginin ovundurması...

Nahaq düşünmüsən bu qəlb sənindi,
Təkcə həsrətinə verdim qəlbimi.
Mənə tək həsrətin tanışdır indi,
Oxunmuş kitabdan sətirlər kimi.

Görən ürəyini kövrəldən nədi?
Tökür gözlərindən yaz yağışını.

Külək də eşqimin vüqar əlidi -
Çırpır üz-gözünə yalvarışını.

Kimsə bu dünyada çatmaz hayına,
Örtər əllərin də üzünü yalnız.
Açıb gözlərini öz harayına,
Özünü taparsan, özünü yalnız.

Nahaq düşünmüsən, nahaq gəlmisən,
Nahaqdı, əzizim, bu göz yaşları.
Onda gülüşünü unutmuşdun sən,
Gəl unut indi də yalvarışları...

## ARAMIZDAN BİR ÇAY AXIR...

Bir ürəyin
Araz adlı xəncər ilə,
Tən bölünmüş parasıyıq.
Bir parası mən –
                bu tayda,
Bir parası sən –
                o tayda.
Ömrümüzü bir həsrətin
Ağrısı qoyub harayda.
Bir az da
keçmiş aşiqlərə bənzəyirik biz.
Leyli-Məcnun,
Əsli-Kərəm kimi
                qovuşmaqdı diləyimiz.
Düşündükcə

vüsal adlı sevgimizə,
birlik adlı sevgimizə,
Araz ilə hüdud qoyan
düşüncəsiz adamları,
eyni dərdli qanlar axır,
sızıldayan yaramızdan.
Bu tayda mən,
o tayda sən...
Keçən əsrin günahları,
axıb keçir aramızdan.

## SOYUQLUQ

Hardan yönümüzə əsdi bu külək,
Vüsal ümidimiz yoxsa sovuşub?
Təbiətdə yazdır, görürəm, ancaq,
Bizim aramıza soyuqlar düşüb.

Hanı sevgimizə sədaqətimiz,
Bəlkə buza dönüb qanımızda o?
Bu ötən qışa da ötdü demərəm,
Yaşayır hələlik aramızda o...

## SƏNİ XATIRLADIM

Səni xatırladım, astaca bu an,
Başım da ovcuma enəsi imiş.
Qəlbimdə həsrətin güclənən zaman,
Sənli xatirələr dinəsi imiş.

İlk görüş gününü salıram yada,
Sən varsan, eşqinlə mən varam dedim.
Mən sənlə bəxtəvər ollam dünyada,
Mən sənlə bir ömrü yaşaram dedim.

Əbəsmiş haqqında düşündüklərim,
İlk görüş ömrümə yol alan qəmmiş.
Səndən qayğı uman tumurcuq eşqim,
Demə donmalıymış pöhrələnməmiş.

Sevgi yox, şöhrətmiş bəlkə istəyin,
Sənin bu hissinə gərək tapılar.
... Mən indi bilmişəm sevən ürəyin,
Bəzən də şöhrətə aldanmağı var...

Beləcə hicrana saldın qəlbimi,
Sevinc qismətim də bir anlıq imiş.
Onda duymamışdım, gözlərin kimi
Sənin sevgi dünyan qaranlıq imiş.

Getdin, yollarımız düyün, dolaşıq,
Axtarma bu işdə günah kimdədir.
İlk eşqin hələ də kədər qarışıq,
Xatirə ağrısı ürəyimdədir...

## GÖRÜŞ-AYRILIQ

Gəldin görüşümə,
ürəyin dolub,
Yəqin günahından danışacaqsan; –
Ömrünün xatirə izinə düşüb,
Mənli günlərinə qayıdacaqsan.

Ürəyin çırpınır son gümanında,
Peşiman duyğular karına gəlməz.
Bu son istəyin də, son inamın da,
Bir ölən sevgini dirildə bilməz.

Şöhrətmiş özgəyə səni bağlayan,
Bir az da boyunun şuxluğu idi.
Sənin nəzərində seçdiyin oğlan,
Dünyanın ən xoşbəxt məxluğu idi.

Sən ki qucağına atıldın yadın,
Ruhunu oxşadın baxışla, gözlə.
... Gedəndə arada bir üz qoymadın,
Yanıma gəlmisən bəs hansı üzlə?

Qəminə tuş gələn könlüm neyləsin?
Barı keçmişini bircə düşün sən.
İlişib sinəndə qəhr olur səsin,
Dinmək istəyirsən, dinə bilmirsən.

Daha eşq söhbətin deyil gərəyim,
Boğdun hisslərimi sən öz əlinlə.
Ağrıdan sinəmdə çarpır ürəyim,
Barışmaq istəmir o da səninlə.

Adımı dilinə gətirmə bir də,
Elə bil mən adda adam olmayıb.
Viranə qoyduğun bu qəlb evimdə,
Sənə sığınmağa bir yer qalmayıb.

Gedirsən...
        üzünə dağılıb saçın,
Bilirəm, sən mənsiz göynəyəcəksən.
Sən daha göz dikib ömür yoluna, –
Öz ata evində qarımamaqçın,
Yaxşımı, ya pismi – buna məcbursan, –
Bu yola kim çıxsa, bəyənəcəksən...

*30.09.1982.*

**BİLSƏM Kİ...**

Bir gün mənim üçün darıxacaqsan,
Gərəyin olaram hava, su kimi.
Sənə şirin ollam,
                axır nəfəsdə,
Bir az da yaşamaq arzusu kimi.

Solar gözlərində uyduğun şöhrət,
Daha dəbdəbələr ruhuna yatmaz.
Mənə doğru gələn yolun olsa da,
O yola çıxmağa cürətin çatmaz.

Yoluma çıxmağa cürətin çatmaz,
Özü də arada bir üz olmaya.
Sənə ağır gələr, bəlkə də məndən,
Səndə iz qalmaya, nişan qalmaya.

Sıxar ürəyini bir şirin həsrət,
Dolar gözlərinə qəm yığın-yığın.
Bəlkə də ömründə birinci dəfə,
Zülmünü çəkərsən peşimanlığın.

Bəlkə də ömründə birinci dəfə,
Məni görmək üçün qəlbin tələsər.
Sonra bu istəyə inamın itər,
Yolunu şübhələr, gümanlar kəsər.

... Bir ümid hissidir könlümə həyan:
"Ki, gərəyin ollam su, hava kimi".
Bilsəm ki, bir zaman darıxacaqsan,
Təsəlli taparam o ana kimi.

*19.01.1985.*

## YAĞIŞLI GÜNÜN TƏKLİYİ

Bu yağışın avazı qəm,
Üzümdə yaş-yaşa dəyir.
Eşqin hicran bəlası da,
Mən kövrək olmuşa dəyir.

Dərdli başım qalda hələ,
Qalmazam bir halda hələ...
Üz tutduğum yolda hələ,
Qədəmlərim daşa dəyir.

Boylanmadım ötən kəsə,
Sığınmadım hər nəfəsə.

... Qəm oxu çoxuna kəsə,
Mənəsə birbaşa dəyir.

Bu yağışın gur səsində,
Hicran qəmi artar məndə.
Ömrün təklik vədəsində,
Günüm belə başa dəyir.

*15.08.1984*

# POEMALAR

# Q İ Y M Ə T

*Azərbaycanın ilk poliqrafçı alimi*
*Şəddad CƏFƏROVA ithaf olunur.*

## I H İ S S Ə

**PROLOQ**

Yox, qərar qətidir, – dilləndi nazir,
Hamı yekdil fikrin söyləməlidir.
Gəldiyimiz qərar haqda yuxarı,
Dərhal da məlumat verilməlidir.

Bugünkü iclasın həll edəcəyi,
Gündəlikdə duran bircə işi var.
Qəbul olunacaq qərarla bağlı,
Dövlət katibinin göstərişi var.

Dövlət katibinin göstərişləri,
Sözsüz də nəzərə alınmalıdır.
Bu gün "Azərbaycan" nəşriyyatına,
Baş direktor təyin olunmalıdır.

Baş direktor təyin olunmalıdır!
Bu sözdən diksinən kimi oldu o.
Bu qəfil xəbərdən tutuldu bir an,
Yerində dikələn kimi oldu o.

Çalışıb özünü tez ələ aldı,
Büruzə vermədi əsəbini də.
Haqsızlıq görəndə - öyrəncəliydi, -
Gizlədə bilirdi qəzəbini də.

Çalışdı mətləbi anlasın Şəddad, -
Bu qədər haqsızlıq, görən, olarmı?
Özü baş direktor ola-ola bəs,
Təzə direktora ehtiyac varmı?

O ki öz işinin bilicisiydi,
Bəli, bu sahədə ilk alim idi.
Hamı bələd ikən səriştəsinə,
Ona bəs badalaq vuran kim idi?

Hansı işi ona tapşırsaydılar,
Dərhal öhdəsindən gələn idi o.
Alim bacarığı, təcrübəsiylə,
Çünki öz işin bilən idi o.

Bəs bu hörmətsizlik kimdən gəlirdi,
Görən, kimə axı pisliyi dəymiş?
Vəzifəsindən kənar etməkdə onu,
Görən, yuxarının marağı nəymiş?

Alimi naşıyla əvəz etməyin,
Məqsəd güdənlərə faydası nəymiş.
Bu qədər vəzifə artıqlığında,
Görəsən, bir stol sevdası nəymiş.

Beləmi işinə qiymət alırdı,
Bu "hörmət" qəlbindən heç vaxt silinməz.

Yaxşı deyiblər ki, "elçün yananın,
Gözləri kor olar", – qədri bilinməz.

Azmı görmüşdü o, haqsızlıqları?
Görünür, bunu da görməliydi o.
Bu da bir növbəti zərbəydi, bəli,
Buna da birtəhər dözməliydi o.

Haqq yerin tapacaq, düşünürdü o,
Bilirdi işində nöqsanı yoxdu.
Onun əleyhinə danışar yalnız,
Kimin ki, mənliyi,
vicdanı yoxdu:

Nazir təqdim etdi təzə kadrı da;
Dedi: öz fikrimi gərək bildirəm:
Baş direktor kimi diqqətinizə,
Gördüyünüz şəxsi təqdim edirəm.

Hamı öz fikrini bildirməlidir, -
Deyib, ara verdi öz sözlərinə.
Bu vaxt bir şıdırğı tərif başladı,
Görən inanmazdı heç gözlərinə.

Tərif edilən kəs naşının biri,
Kitab nəşrindən tam bixəbər kəsdi.
Haqsızlığı Şəddad görsə də susdu,
Bildi ki, danışmaq burda əbəsdi.

Biri heç doymurdu təriflərməkdən,
Nitqində təzə-tər sözlər qururdu.

Haqqı müdafiə edirdi guya,
Hansı ki, o, haqqa balta vururdu.

Haqdan, ədalətdən "cəh-cəh" vuranın,
Haqqı, ədaləti necə yalanmış.
Bəzi adamların Şəddad gördü ki,
Astarıyla üzü bir cür olanmış.

Bəli, tərifləndi bu naşı yoldaş,
Haqqında müsbət də rəyə gəldilər.
Beləcə Şəddadın yerinə onu,
Direktor olmağa layiq bildilər.

Hamı məmnun qaldı öz əməlindən,
Bitdi bir iclasın, bitdi işi də.
Beləcə yerinə yetirildi tam,
Dövlət katibinin göstərişi də.

Bir şey unuduldu, - belə qərara,
Kollektiv razılıq, görən, verərmi?
Kollektiv, görəsən, direktor kimi
Naşı bir adamı qəbul edərmi?
Şəddad danışmadı, – heç qərara da,
Etiraz etmədi, - bildi əbəsdi.
Ömründə birinci dəfəydi bəlkə,
İşə yox,
        evinə durub tələsdi.

## KƏLBİ

### 1.

Kəlbi at oynadırdı,
Kəlbi meydan sürürdü.
İtaət etməyənə,
Kəlbi qan uddururdu.
Bu pislik kabusunun,
Zülmü ərşə dirəndi.
Əlindən dad edirdi,
Bütün Gərmətük kəndi.
Bu kəndə sovet sədri,
O, təyin ediləndən,
Elə bil şadlıq hissi,
Çəkilmişdi bu kənddən.
Elə bil əl üzmüşdü,
O, imandan,
　　　o, dindən.
Bir adama yaxşılıq,
Gəlməmişdi əlindən.
Qəzəbinə gələnin
Günü zillət günüydü.
Dövran onun dövranı,
Zülüm onun zülmüydü.
Cızığından çıxanı,
Biryolluq susdururdu.
Üzünə ağ olanı,
Sibirlə qorxudurdu.
O vaxt Sibir çoxuyçün,
Məhv olmaqdı,
　　　　　　　ölməkdi.

Sibir – "gedən-qayıtmaz", –
"Gedər-gəlməz" deməkdi.
Cəmiyyət də təzəydi,
Hökumət də təzəydi.
Kəlbiylə çəkişənin,
Görəsən, həddi nəydi?
İxtiyar onda idi,
Sərəncam onda idi.
Əli möhür görəndən,
Hər əncam onda idi.
Təzə hökumət ona,
Yaman fürsət vermişdi.
Kəlbi maskalanaraq,
Dondan-dona girmişdi.
Damarında qaynayan,
Gördü ki, intiqamdı:
Haqq-hesab çəkmək üçün
Çoxuyla, xoş məqamdı.
Kimdə hayıfı varsa,
Hayfını tez çıxırdı.
Varı, mülkü olana,
Kulak kimi baxırdı.
Kulak - deyə neçəsin,
Şərləyib sürgün etdi.
Sürgün edilənin də,
Çoxu biryolluq getdi.
O, intiqam alırdı,
Kəndin varlılarından.
Varı olanı dərhal,
Məhrum etdi varından.
Bu da təzə hökumət, -
Qurduğu qayda-qanun.

Buydu təzə dövlətdən,
Kəndin gördüyü ağ gün.
Kiminsə giley-güzar,
Etməyə haqqı nəydi?
Dövran belə dövrandı,
Kəlbi belə Kəlbiydi.
Guya xidmət edirdi,
Gənc sovet dövlətinə.
Kənddəsə adamların,
Dönmüşdü nifrətinə.

**2.**

Kənddə Hüseyn kişinin,
Böyük bir mülkü vardı.
Axtarsan belə mülkdən,
Kənddə az-az olardı.
Yaxşı bağı-bağatı,
Varı-dövləti vardı.
Hüseyn kişinin həm də,
Kənddə hörməti vardı.
Varını gizlətməzdi,
Hamıya əl tutardı.
Əlsizin-ayaqsızın,
Qulluğunda durardı.
Kəndin xeyir-şərində
Daim birinci idi.
Kimsə qınamaz məni,
Yoxsulun, imkansızın,
Desəm, sevinci idi.
Kasıba əl tutmuşdu,

Yoxsula acımışdı.
Bir sözlə: Hüseyn kişi,
Yaxşı ad qazanmışdı.
Kəlbinin ona yaman,
Paxıllığı tuturdu.
Ürəyində Hüseynə,
Min cür tələ qururdu.
Mal-mülkünə, varına
Kəlbi həsəd çəkirdi.
Hüseyni damlamağa,
Yurdunu daşlamağa,
Fürsət, məqam gəzirdi.
Qanunsuz bir ölkədə,
Məgər bəhanə azmı?
Kimisə damlamağa, -
Evini dağıtmağa,
Bir məqam tapılmazmı?
Kəlbi yaxşı bilirdi,
Onu fikrindən etmək
Əzmi olmaz bir kəsdə.
Vaxt gələr ki, Hüseynin,
Mülkünün, ocağının
Daşı qalmaz daş üstə.
İxtiyar onda idi,
Hər əncam onda idi.
Əli möhür görəndən,
Sərəncam onda idi.
Zaman elə zamandı,
Təzə quruluş yaman
Varlıları əzirdi.
Adını kulak qoyub,
Sürgünə göndərirdi.

Belə bəhanəni də,
Hökumət verdi ona.
Hüseyni kulak kimi,
Bu kənddən sürgün etmək,
Fikri gəldi ağlına.
Barmağını dişlədi, -
Məqam yaxşı məqamdı.
Gördü qanında coşan,
Paxıllıq,
        intiqamdı!

**3.**

Aydın yaz səhəriydi,
Günəş üzə gülürdü.
Elə bil göydən yerə,
Zərrin nur tökülürdü.
Hüseyn bikef olsa da,
Bu xoş yaz havasında,
Oyanmışdı birtəhər.
O, erkən oyanmağı,
Xoşlardı səhər-səhər.
Həyətə boylananda,
Üç milis dayanmışdı,
Gördü doqqaz önündə.
Əhvalları xoş idi,
Gördü ki, üçünün də.
Biri qabağa gəlib,
Tez Hüseyni səslədi.
Hüseyn həyətə düşdü,
Düşdü ki, görsün nədi.

– Xoş ola,
Səhər-səhər, ay bala?
– Evini tərk edəcəksən,
Bizimlə gedəcəksən.
– Günahım nədir, bala?
– Çünki kulaksan, kişi.
– Kimə ziyanım dəyib?
– Pis olmaz, sözümüzə
Sən qulaq assan, kişi.
– Bilirəm "kulaklığım",
Kimi göynədir, bala.
Ancaq haqq var,
                divan var,
Bu zülüm nədir, bala?
– Göstəriş Kəlbinindir, -
Onun sözü qanundur.
Kəlbi olan yerdə də,
Haqq odur,
        divan odur.
Qandalları Hüseynin,
Taxanda qollarına;
Oğlu Muğdad dözmədi,
Yalvardı,
        dedi: onlar,
Atasının yerinə,
Qoy onu aparsınlar;
Qocalıb,
        ahıllanıb,
Sibirin şaxtasına,
Tablaya bilməz atam.
Sibir – "gedər-gəlməzdi", –
Qayıdıb gəlməz atam.

Milislər duruxdular,
Bir-birinə baxdılar.
İnsaf edib Hüseynin
Qollarını açdılar.
Milislərdən birisi,
Cəld qabağa adladı.
Muğdadın qollarını
Cütləyib qandalladı.

Nəsibə haray çəkdi, -
Muğdad, atasızlığı
Övladlarına qıyma.
Getmə, balalarını,
Evini başsız qoyma.

İnsaf et,
        Muğdad, getmə,
Başımı daşlı qoyma.
Sən körpə uşaqların,
Gözünü yaşlı qoyma.

Görüm xain düşməni,
Doğransın qıyma-qıyma.
Qayıt, Muğdad, yurdunu
Başlı-başına qoyma.

Qayıt, Muğdad,
                bu dərddən,
Sinəmi dağlı qoyma.
Qayıt, Muğdad, qapımı
Biryolluq bağlı qoyma.
... Qan-qadalı ölkədə,

Haraya baxan kimdi.
Dərdi dərdlilər bilər!
Bax beləcə Muğdadı,
Sürgünə göndərdilər.
Nəsibə fəryad etdi,
Başına döyə-döyə.
Evini başsız qoyan,
Paxılı söyə-söyə,
Xaini söyə-söyə.

**4.**

Kəlbinin qəzəb odu,
Vulkan lavası kimi,
Hələ ki, soyumurdu.
Tutduğu əməllərdən,
Doymurdu ki,
          doymurdu.

Hədəfi Hüseyn idi,
Bu niyyətə də yetdi.
Şərə salıb, onu da
Axır ki, sürgün etdi.

Muğdad ilə Hüseyni
Bu cür didərgin saldı.
Beləcə bir ailə,
Kişisiz, başsız qaldı.

İş bununla bitdimi,
Bitsəydi nə vardı ki,
Bir nəslin kədər yükü
Bir az azalardı ki.

Dərd bununla bitdimi,
Demə yenisi varmış.
Bu evdən sovuşmayan,
Dərdin gerisi varmış.

Bir səhər Ağabanu
Gəlini Nəsibəylə,
Dərdləşirdi eyvanda.
Balaca Xudadad da
Oturmuşdu divanda.
Həyət qapısı bu dəm,
Açıldı aram-aram.
Kəndin ustası Mahmud,
Bir dəstə adam ilə,
Nə salam,
nə ehtiram,
Doluşdular həyətə.
– Hə, Ağabanu arvad,
Evin sökülməlidir.
Sədrin əmri belədir.
– Niyə sökürsünüz ki?
– Çünki kulak evidir.
– Hardan olduq biz kulak,
İmkan verin qoy qalaq.

Ağabanu çox dedi,
Qulaq asan olmadı.
Gəlini şivən etdi,
Əl saxlayan olmadı.
Axırda heç birində,
Təpər, taqət qalmadı.
Ağabanu birtəhər,

Yenə də gəldi dilə.
Ay Mahmud, Allah yoxmu?-
Adam haqqı itirməz.
Bu zülmü ki, edirsiz,
Yer görsə,
        yer götürməz,
Göy körsə,
        göy götürməz.
Adam başsız bir evə,
Xain nəzər yetirməz.
Ağabanu çox dedi,
Haqq belə,
        divan belə...
Mahmud dayanıb dindi,
– Biz neynək, Ağabanu,
Kəlbinin əmridir bu,-
Onun əmri qanundur.
Kəlbi olan yerdə də,
Haqq odur,
        divan odur.

Ağabanu dözməyib,
Zülüm-zülüm ağladı.
Nəsibənin göz yaşı,
Bulaq kimi çağladı.
Beləcə bir xaniman,
Külünglə dağıdıldı.
Əvəzində yerində,
Sökülmüş daşlar qaldı.

Balaca oğlunun da,
Körpə qəlbi dözmədi.
Ağladı, ağlayanda

Bildi ki, bu dünyada,
Zülüm nədi,
        dərd nədi.

Ağabanu bu zaman.
Nəyisə duymuş kimi,
Mahmuda dedi ki, siz,
O kiçik komanı da,
Yoxsa sökəcəksiniz?
– Bəli, ay Ağabanu,
O da sökülməlidir.
Onun söküldüyünü,
Kəlbi də bilməlidir.

-Sökməyin, Mahmud, oğul,
Bunca qansız olmayın.
Körpələri rəhm edib,
Siz tavansız qoymayın.

Bu cür ki, zülüm olmaz,
Bu cür intiqam olmaz.
Kişi başsız bir evdən, -
Qadından hayıf almaz.

Yurddaş öz yurddaşının,
Yurduna belə qıymaz.
Düşmən də düşmənini,
Bu cür yuvasız qoymaz.

Mahmud yumşaldı deyən, –
Mahmud axı neyləsin.
O, göstəriş almışdı,
Gəlmişdi icra etsin.

Baxdı Ağabanuya,
- Ağabanu arvad, siz
Kəlbidən razılıq kağızı
                ala bilsəniz,
Komanı dağıtmarıq.
Bu imansız işə,
                baş qatmarıq.
Ağabanu tez
Kəlbinin yanına yollandı.
Ondan
        razılıq alacağına inandı.
Kəlbi arvadı görcək
                soruşdu:
– Niyə gəlmisən?
Ağabanu gözlərində yaş dilləndi:
– Kəlbi qardaş,
Uşaqlara,
Gəlinə rəhm edin.
Nahaq günaha batmayın.
Heç olmasa, həyətdəki,
Komanı dağıtmayın.
– Hə, bildim, Ağabanu arvad,
Ərinin haram,
        gümüşü, qızılları
        demək, o komadadır.
Eybi yox, yoxladaram.
O ki, qaldı kağıza...
Bir an duruxdu, durdu...
Sonra kağız götürdü.
Nəsə yazıb,
        Ağabanuya verdi.

Yazıq arvad sevincək,
Kağızı birnəfəsə
Mahmuda yetirdi.
Mahmud kağızı oxudu:
"Ey, Şümür,
Kağızı oxuyan kimi,
İmamın evini dağıt,
Külünü göyə sovur"!

Mahmud əvvəl kağıza
Baxıb qımışdı güldü.
O da dözmədi yəqin,
Qansızlığa mat qalıb,
Gözündən yaş töküldü.

Tez də sildi gözünü,
Qorxdu ki, kimsə görər:
Kulak ailəsinə
Acıdığını dərhal,
Kəlbiyə xəbər verər.

Əl atdı külüngünə,
Sökməyi davam etdi,
Komanı uçurtmaqla,
İşini tamam etdi.

Beləcə ev, imarət,
Külünglə dağıdıldı.
Əvəzində yerində,
Sökülmüş daşlar qaldı.

Kənardan da Xudadad,
Bu səhnəyə baxırdı.

Körpə qəlbi dözməyib,
Gözündən yaş axırdı.

Ağabanu qalmışdı,
Başına döyə-döyə.
Nəsibə ağlayırdı,
Yurdu dağılsın görüm,
Xainin deyə-deyə,
Baisin deyə-deyə!

**5.**

Davadan sonra
Muğdad kəndinə qayıtdı,-
Doğma Gərmətük kəndinə.
Ancaq burda yaşamadı.
Ömrünün davamına
Burada başlamadı.
Ailəsini götürüb,
Bakıya yollandı.
Ancaq bu kənd oldu,
Həmişə güvənci, andı...
Oğulları
        seyrək görünür bu kəndin,
Dava çoxunu
        əlindən almışdı.
"Meşə çaqqalsız olmaz",
Kəlbi kimiləri qalmışdı.
Hamıya bir gözlə baxır,
Dava vaxtı
Qoynunda çoxlu
        çinarlar bitirmişdi.

Həzi Aslanovu,
Baba Xəliloğlunu,
Şəddadı yetirən bu kənd,
Kəlbi kimiləri də yetirmişdi.
Davaya
tanış idi bu kənd,
oğullarının çoxunu,
Topundan, tüfəngindən keçirmişdi.
Çoxunu
Tüfənginin darağıyla,
Sünbül kimi biçmişdi.
Davanın elə bil ki,
Bu kənddən yolu düşmüşdü.
Hər üzünə bələddi.
Sərt üzünü də
səngərlərdə görmüşdü.
Davadan sonra
çox işlərin üstü açıldı.
Kəlbinin isə
paxırı açıldı.
İşindən çıxarıldı.
Arağa qurşanıb,
bekar dolanırdı,
avaralanırdı.
Bir gün də
xəndəyə düşüb ölmüşdü.
Ölüsünü
üç gündən sonra,
Xəndəkdə
Bir-iki nəfər
pal-paltarda,
torpaqla örtmüşdü.

Zülmü, zülümkarı
        yer götürmür.
Ömrünü beləcə başa vurdu.
Kəlbini qəbir götürmədi,
Xəndək götürdü!

## I I  H İ S S Ə

### ŞƏDDAD

Şəddad ailəsiylə
        köçdü bir gün Bakıya,
Onun kənd həyatının
        beləcə sonu yetdi.
Uşaqlıq illərini
        düşünəndə, ananda,
Daim də gözlərində
        bir həsrət qəmi bitdi.
Daha geriyə baxıb
        qəmlənməyə dəyməzdi,
Həyat daim irəli
        baxanları xoşlayır.
Harda ki, uşaqlığın
        sadəlövh ömrü bitir,
Orda ömrün ikinci
        mərhələsi başlayır.

Həyatın sərt üzünü
        uşaqkən çox görmüşdü,
Artıq kifayət qədər
        "dərd təcrübəsi" vardı.

Gələcək sınaqlara
        o, artıq hazır idi,
Odur hər çətinliyə
        adi haltək baxardı.

Kiminsə köməyinə
        heç vaxt arxalanmadı,
Hamıya istəyirdi
        özü gərəkli olsun.
Çətində də hər işi
        ürəklə görmək üçün,
Ən əvvəl çalışdı ki,
        özü ürəkli olsun.

O, öz arzularını
        qanad etdi çiyninə,
Bilirdi arzularsız
        yol getmək mümkün deyil.
O, ehtiyacdan doğan
        qayğılardan qorxmadı,
Bilirdi qayğılarsız
        ötən gün də gün deyil.

Özünü ehtiyacın
        axarına salmadı,
Çalışdı bu axarın
        önündə mətin dursun.
O, adi bir uğurdan
        qane olub, qalmadı,
İstədi ki, ömrünü
        daha mənalı qursun.

O, çox ənənənin də
        təqlidçisi olmadı,
Ancaq yaxşı nə varsa,
        dərhal mənimsəyirdi.
Öz hörmətli nəslinə,
        layiqli oğul kimi,
Bir az da şöhrət payı
        gətirmək istəyirdi.

**II**

Orta məktəbi artıq
        qurtarmaq üzrə idi,
Əlləri işdən ötrü
        elə bil göynəyirdi.
Qardaşının səyilə,
        mətbəələrin birində,
Şəddad sinkoqrafiya
        sexində işə girdi.

Bu ilk iş yeri idi əmək tarixçəsində,
O, ilk gündən işinin qulpundan
                        bərk yapışdı.
Şəddad kitab nəşrinə
                elə bağlanmışdı ki,
Artıq əmin idi ki, - peşəsini tapmışdı.

Ürəyinin quluydu,
                ürəyinin hökmündə,
Bircə göstəriş vardı, –
                o da vətənə xidmət.

İşin böyük-kiçiyi yox idi onun üçün,
Bircə böyük iş vardı, –
o da vətənə xidmət

Sərkərdəsi də olmaq istəmişdi vətənin,
Sərkərdəlik ömrünün şərəfini görüncə.
Taleyində oxşarlıq vardı Ərəblinskiyə,-
O da sərkərdə olmaq istəmişdi ilk öncə*.

Lakin həyat yolunu başqa bir səmtə çəkdi,
Gördü bu səmtdən dönmək
heç də nəfli iş deyil: –
Kitab-qəzet nəşriylə vətənə xidmət etmək,
Sərkərdəsi olmaqdan az şərəfli iş deyil.

**III**

Hörməti kollektivdə
artırdı gündən-günə,
Diqqəti cəlb edirdi
onun çalışqanlığı.
Şəddadın xoşbəxtliyi
onda idi bəlkə də,
Hamıya xoş gəlirdi
onun istiqanlığı.

---

* Azərbaycanın məşhur aktyoru H.Ərəblinski əvvəllər sərkərdə olmaq istəmişdi. Lakin Gürcüstanda qəbul imtahanına gecikdiyindən bu arzu baş tutmamışdır.

Kollektivin gözündə o ucala-ucala,
Çalışmırdı özünü kimdənsə uca tutsun.
Qarışqanı böyüdüb,
fil edənlərdən fərqli,
O, böyük işini də istəmirdi böyütsün.

O heç vaxt can atmadı özünü gözə soxsun,
Kimlərdənsə seçilmək həvəsi də yox idi.
Vüqarında hansısa mənsəbə yetmək üçün,
Kimlərəsə əyilmək həvəsi də yox idi.

Həyat qəmli-sevincli,
təzadlı olduğu tək,
Ömrün fəsilləri də bütünlüklə yaz deyil.
Şöhrətləndikcə gördü,
paxıllıq sapandıyla,
Onun bostanına da daş atanlar az deyil.

Ona daş atanlarla qisasçılıq etmədi,
Çünki xəbis işiydi cırmaqlamaq, dişləmək.
Onun qisas almaqda bircə metodu vardı,
Daim yaxşılıq etmək,
daim yaxşı işləmək.

Namərdlərin önündə vüqarını əymədi,
Qoymadı ürəyinə yaxın düşə qəm, kədər.
Daim yaxşı işiylə şərəfli
bir yol keçdi,
Adi sex işçisindən, rəhbər işçiyə qədər.

Rəhbər bir işçi kimi sadəydi davranışda,
Hamının köməyinə yetişirdi çətində.

O, dərdini-sərini başa düşürdü dərhal,
Qulluq adamının da, adi bir işçinin də.

İşindən ayrılmadı, aspirant olanda da,
Kitab nəşrində neçə yeniliklər yaratdı.
Nəşriyyat daxilində-işlərin təşkilində
Yeni prinsiplərin tədqiqinə can atdı.

Bir tədqiqatçı kimi rahatlığı çəkildi,
Gecələr otağında bir şam təki alışdı.
Əldə etdiyi zəngin biliyin, təcrübənin,
Əməli işlər üzrə tətbiqinə çalışdı.

...Bir gün də Moskvadan
sevinclə geri döndü,
Sevinirdi, bu günü, çünki çox arzulardı.
Alim adı alan gün, özündən də, bəlkə çox,
O gün Azərbaycanın sevinmək haqqı vardı.

Şəddadın uğuruna özündən çox sevindi,
Dost-tanış, qohum-qardaş bu xəbəri alanda.
Ünvanına alqışlar gəldi yaxın-uzaqdan.
Şəninə şeirlər qoşdu şair Şəkər Aslan da:

"Qardaş, nə sehirli bir sənətin var,
Kitab çap eləmək müqəddəs işdir.
Maraqlı, mənalı nəfis kitablar,
Xalqın həyatında bir yüksəlişdir.

Təmin etmək üçün bu yüksəlişi,
Düşmüsən nə qədər dumana, çənə.
Sən müdir, sən ata, sən mərd bir kişi,
Hörmətlə, izzətlə baxırlar sənə.

Söylə uğurları kim gördü, saydı?
Sevindim, sözünə qulaq asanda.
Böyük əməyini kaş ki, duyaydı,
Kitab oxuyan da, kitab yazan da.

Qoy coşsun ilhamla ürəyin, canın,
Nədir hamımızın fikri, niyyəti.
Yüksəlsin müstəqil Azərbaycanın,
Kitab çap eləmək mədəniyyəti"*.

Tək öz uğuru kimi, baxmadı bu uğura,
Şərəfini duyurdu qazandığı ad-sanın.
O, kitab nəşri üzrə, poliqrafiya üzrə,
Yeganə alimiydi bəli, Azərbaycanın.

**IV**

Şəddadın uğuruna
sevinmədi paxıllar,
Neçəsinin köksünə
elə bil zərbə dəydi.
Bir zaman onun ilə
bir cərgədə olanlar,
İndisə ona qarşı
tamam zidd cərgədəydi.

O, bütün bu halların
səbəbini bilirdi, -
"Gör-götür" dünyasıydı, -
görürdü-götürürdü.

---

* Dördbəndlik şeir şair Şəkər Aslanındır.

Şəddadın ayağına
söhrət özü gəlirdi,
Buna sevinməyənin
paxıllığı tuturdu.

Onun alim adıyla
Bakıya qayıtması,
Neçə vəzifəlinin
yuxusunu pozmuşdu.
Neçə kürsü qulunun
ürəyində qəm pası, -
Neçəsini paxıllıq
əldən salıb üzmüşdü.

Şəddada qarşı böhtan
kompaniyası başladı,
Təşəbbüssə o vaxtkı
komitə sədrindəydi.
O, bütün hiylələri
mərdliklə qarşıladı,
Nə kiməsə əyildi,
nə də xətrinə dəydi.

Anası yad millətdən
olan komitə sədri,
Bu zaman onu açıq
gözümçıxdıya saldı.
Nəşriyyatın rəhbəri -
o vaxtkı baş direktor,
Bu hiylə oyununda
xüsusi buyruq aldı.

Baş direktor bu işə
cəlb etdi neçəsini,
Şəddad hədəf idisə -
özü də nişançıydı.
O vaxtkı baş direktor -
kimsə qınamaz məni,
Baş direktordan da çox -
desəm, baş böhtançıydı.

Dözülməz bir mühitdə,
dözməzdi, bəlkə daş da,
Axır onun qəlbi də
buna tab gətirmədi.
Ərizəsini yazıb,
qalmadı nəşriyyatda,
Artıq söz-söhbətləri
ürəyi götürmədi.

Beləcə öz işini
gördü namərd hiyləsi,
İşindən kənar oldu
bir alim mütəxəssis.
O vaxtkı üzdəniraq
naşirlərdən neçəsi,
Şəddadın yaddaşında
qaldı namərddən də pis!

## "ULYANOVSKAYA PRAVDA" NƏŞRİYYATINDA

Onun bacarığından
xəbərdardı Rusiya,
Savadı, səriştəsi
aydın idi çoxuna.
Şəddadı işsiz qoya
bilmədi böhtan, riya,
Ulyanovskidən bu vaxt
dəvətlər gəldi ona.

O, çox götür-qoy etdi,
çox daşındı-düşündü,
Bakıdan uzaqlaşmaq
ona çox ağır gəldi.
Bir halda ki, qədrini
vətəndə bilən yoxdu,
Qəlbində qəti getmək
fikrinə axır gəldi.

Şəddad xoş qarşılandı
uzaq Ulyanovskidə,
Dəvət edilən işlə
tanış olmağa getdi.
Böyük bir nəşriyyata,
şəhər rəhbərliyi də,
Baş direktor olmağı
ona həvalə etdi.

Əvvəlcə bu hörmətdən
doluxdu, kövrəldi də,
Burda yetdiyi haqqa
vətəndə yetməmişdi.
Haqqı hələ bir yana,
neçə nadan vətəndə,
Bir kiçik mənsəbdən də,
onu məhrum etmişdi.

Ev-eşiklə, otaqla
dərhal təmin olundu,
Onu layiq bildilər
hər cür qayğı, hörmətə.
Bu hörmətin önündə
o, xeyli məşğul oldu,
Əhd etdi doğru çıxsın
bu haqqa, bu qiymətə.

Bu haqqın məsuliyyət
yükündən də qorxmadı,
Çalışaraq bu haqqa
layiq ola bildi o.
Böyük öhdəliklərin
önündə duruxmadı,
Bütün öhdəliklərin
öhdəsindən gəldi o.

O, sevmirdi boş-bekar,
ətalətli həyatı,
İşlədikcə qanında
işləmək şövqü artdı.

Vilayətdə geridə
qalmış bir nəşriyyatı,
Tezliklə də öncüllər
sırasına çıxartdı.

Tək adını doğrultmaq
hayında da olmayıb,
Həvəs də göstərməyib
ucuz şöhrətə yetsin.
Harda olursa-olsun,
amalından qalmayıb, -
Vətənin istəmişdi
adını uca etsin.

Vətən idi canında,
vətən idi ruhunda,
Vətənsiz ötüşmədi
uzaq eldə bir günü.
Bir kövrəklik içində -
yurdundan uzaqda da,
Qürbətdə də yaşadı,
yalnız vətən ömrünü.

Günü qərib günü olmuşdu onun,
Bildi sevinci yox vətənsiz günün.
Hicran ağrısıyla cavan ömrünün,
Dönmüşdü vədəsiz qışına qürbət.

Gördü vətən hissi dolanır qanda,
Ürək rahat olmur, sıxılır can da.

Həsrət qəmi ilə doluxsunanda,
Göynətdi qəlbinin başını qürbət.

Qürbətdə yaşayan qürbəti öyməz,
Gəlib qapısını bir kimsə döyməz.
Lap cənnət də olsa, gördü ki, dəyməz,
Vətənin bir çopur daşına qürbət.

Özünü danladı da
                    ayrılıq güc gələndə,
Məgər vətəndə ona
                    bir iş tapılmazdımı?
Qazandığı savadı,
                    təcrübəni vətəndə,
Öz xalqının yolunda
                    sərf etmək olmazdımı?

Olardı – fikirləşdi,
                    bu addımı atmağa,
Məcbur edilməsəydi,
                    əlbəttə ki, olardı.
Düşünür... düşünürdü...
                    vətənə qayıtmağa,
Ürəyində ən böyük,
                    çünki istəyi vardı.

**MEYDAN**

90-cı ilin yanvarı,
Bakının baş meydanı...
Şəhər təlatümdədir...
Bakı pozmuşdu, deyəsən,
Kölələr üçün qoyulmuş qaydanı.
Hər yanda insan axını...
axır, axırdı meydana.
Meydan xatırladırdı,
dənizin kükrəyən,
İpə-sapa yatmayan dalğasını.
Xalq üçün gərəkli olanlar
axırdı bu meydana.
BTR-lər, tanklar önündə durmağa
daha ürəkli olanlar,
axırdı bu meydana.
Millət cana doymuşdu,
Sovet imperiyasından, -
azadıq, bərabərhüquqluyuq deyənlərin
ikiüzlülüyündən, riyasından.
Bakı çıxmaq üzrəydi,
müti şəhərlər sırasından.
Bakı – kükrəyən dəniz,
aşırdı məcrasından.
İmperiyanın dayaqları
laxlayırdı Bakıda.
İmperiyanı ölüm uyğusu
haqlayırdı Bakıda,
Dəniz kimi kükrəyirdi,
Millətin birlik ruhu, -

Müstəqillik ruhu.
Bu birliyin önündə,
zəncir çeynəyirdi,
İmperiya küçükləri, -
İmperiya qaraguruhu.
Hamı birlik deyirdi, -
Meydan birlik meydanıydı.
Bu əzmə, gücə qarşı
İmperiya çətin dayanaydı.
... Tribunadan
Vətən geriyə səsləyirdi,
didərgin salınmış oğullarını.
Geriyə səsləyirdi,
famil-famil, adbaad.
Uzaqda olsa da,
Bu adların içində
öz adını da eşidirdi Şəddad.
Dözmədi... kövrəldi,
Vətənin birlik çağırışına
Yetmək qərarına gəldi.
Çünki vətənlə döyünən
böyük ürəyi vardı.
Çünki burnunun ucunda
Vətən göynəyi vardı.

**BOYKOT**

Böyük bir nəşriyyat... iclas salonu,
Çöp atsaydın yerə, - yerə düşməzdi.
Dodaqlarda - indi təzə direktor,
Təqdim olunacaq - xəbəri gəzdi.

Bu bir ənənəydi, tələblərinə
Görünür, riayət edilməliydi.
Təzə direktora xeyir-dua da,
Kollektiv adından verilməliydi.

Mətbuat naziri fikirləşirdi, -
İşçilər razılıq, görən, verərmi?
Şəddadtək bir alim mütəxəssisin,
Yerinə özgəni qəbul edərmi?

Hamının könlündə fikri bir idi; -
Belə də haqsızlıq, görən, olarmı?!
Şəddadtək rəhbəri olan bir yerdə,
Təzə direktora ehtiyac varmı?

Kimsə dözməyirdi bu haqsızlığa, -
Yaxşılara qiymət bumu ölkədə?!
Görən, günahı nə, nöqsanı nədir,
Bəlkə də milləti...
hə də... bəlkə də!

- Sizə baş direktor təyin olunub, -
Nazir təqdim etdi: bax bu filankəs.
Elə bilirəm ki, etiraz etməz,
Mənim qərarıma sizlərdən heç kəs.

... Filankəs özündən razı kimiydi,
Nazirəmi ümid bəsləyirdi o?
Yaxşı yarınmışdı yuxarılara,
Pay kimi vəzifə gözləyirdi o.

- Sizə ki, tanışdır gördüyünüz kəs,
Həm yaxşı jurnalist, həm "yazıçıdı".

Hər yerdə "tanınır", - teleekranda,
Bəlkə də ən "məşhur" aparıcıdı.

- Nəşriyyatdan necə xəbəri varmı? -
Dözməyib yerindən kimsə söz atdı.
Bu söz cürət verib,
                bütün salonun,
Etiraz səsini üzə çıxartdı.

Deyəsən, tutulan kimiydi nazir,
Sözlər hədəfinə yaman dəyirdi.
O gün nəşriyyatın bütöv heyəti,
Şəddad Cəfərovu dəstəkləyirdi.

... Filankəs dözmədi söz tənəsinə,
Nazirlə salonu durub tərk etdi.
Kollektiv içində naşının biri,
Beləcə də boykot olundu getdi.

Gələndə şad-xürrəm görünürdü o,
Gedəndə bir sınıq ürəklə getdi.
Özgə qoltuğunda bu şitil oğlan,
Kələklə gəlmişdi,
                küləklə getdi.

O, kabab iyinə gəlmişdi bura, -
Gördü ki,.. - özü də dağlandı getdi.
İçində buğlanan niyyəti vardı,
Qəzəbi içində buğlandı getdi.

Duydu kollektivin gücünü yəqin,
Nə yaxşı ki, üzü o, sulu getdi.

Gələndə özünü o, şax tutmuşdu,
Gedəndə qaməti bükülü getdi.

Gedəndə nazirdən yapışmışdı o,
Əlləri beləcə ətəkdə getdi.
Görünür, yedəyə öyrəncəliydi,
Yedəkdə gəlmişdi, yedəkdə getdi!

... O gün kollektivin etiraz səsi,
Haqsızlığa qarşı haqqın səsiydi.
Yüksək etimadla dəstəklənməsi,
Şəddadın ən böyük qələbəsiydi.

## EPİLOQ

Son vaxtlar üzərində
təzyiqlər çoxalsa da,
İşindən soyumamaq
qərarına gəldi o.
Arxasınca atılan
daşlara göz yumsa da,
Hardan atıldığını,
ancaq yaxşı bildi o.

O, son hadisələrdən
qalibtək çıxsa belə,
Ona qarşı qərəzin
məğzini duya bildi.
Yuxarıdan verilən
bir quru fərman ilə,
Axır ki, vəzifədən
haqsız kənar edildi.

Bu fərmanla əhdinə
marıqda çatdı kimsə,
Bu fərman kimlərisə
məqsədinə yetirdi.
O, bir stol itirdi, -
kitab-qəzet nəşrisə,
Onun itirdiyindən
onsuz çox şey itirdi.
İtirdiyi stola
qəti heyifsilənmədi,
O, stol azarkeşi
olmamışdı heç vədə.
Çətində amalından
bir anlıq da dönmədi,
Öz alim vüqarını
qorudu dar gündə də.

... Yenə təzə kabinet...
yenə də iş başında,
Dünənkindən də artıq
iş başından aşırdı.
Millət başçılarından
zərbələr alanda da,
O, ruhdan düşməyirdi,..
çalışır... çalışırdı!

*24.12.1995 – 10.01.1996*

# YARIMÇIQ ÖMÜR

*(Lirik poema)*

***Həyatdan vaxtsız köçən anam Tuğranın əziz xatirəsinə ithaf edirəm.***

## PROLOQ

Kimsə əməlində dinc durmur yenə,
Kimsə məqsədində hiylələr qurur.
Dünyanın işləri qarışıb deyə,
Analar qarışıq yuxular görür.

Dünyamı qarışıb, yoxsa Tanrının
Üstündə azalıb himayəsimi?
Analar yaşayır, sanki dünyanın,
Otun, qarışqanın, gülün, insanın
Yaşamaq eşqinə cavabdeh kimi.

Analar könlündə boğar kini də,
Analar könlündə min qəm, min fikir.
Dünyanın ən ağır dərdlərini də,
Analar,
analar,
analar çəkir!

Duyaq qayğımıza qalanları ki,
Özgə haqqını da biz duya bilək.
Qoruyaq, qoruyaq anaları ki,
Otu, qarışqanı, quşu, heyvanı,

Bir sözlə; hamını, -
Yeri, insanı,
Gülü, çiçəyi də qoruya bilək.

**QƏMLİ SENTYABR**

Bu payız səhərinin,
Havası necə ağır...
Saralmış yarpaqların
"Üz-gözündən" qəm yağır.
Çiçəklərin, otların
"Yanaqları" nəmlidir.
Təbiət başdan-başa
Elə bil ki, qəmlidir.
Payız qəm gətirənmiş, -
Bu payız anamın da
Ömrünə qəm gətirdi.
Yatağında ölümlə
Bir çarpışma gedirdi.
Neçə qardaş, bacının
Bağrını qəm didirdi.
Bu ağrıdan, acıdan,
Bir nəslin, bir ocağın
Gördüm əhvalı birdi.
Anamın gözlərində
Həyat nuru itirdi.
Payız qəm gətirənmiş -
Qəm üstə qəm gətirdi.
Taleyin hökmü sərtmiş,
Tale amansız imiş.
Hər dərdin dərmanı var,

Bu dərd dərmansız imiş.
Bu mərəzin önündə
Həkim də gücsüz imiş.
Həkim gücsüz olanda,
Ümid qalır Allaha.
Dərd əlində qalanda,
Həkimdən əl üzənin,
Günahı nəymiş daha?
Fələklər necə dözdü,
Köksündən qopan aha.
Ömür əldən gedəndə,
Bu dünyada nə qalır
Daha ömürdən baha.
Taleyin hökmünə bax,
Çox vaxt dərdlə üz-üzə,
Qoyur adamı aciz.
Mərəzin bir mərəz ki,
Önündə hamı aciz...
Heç kimdən kar aşmadı,
Ana, günahın nəymiş?
Dərd dərmansız olanda,
Həkim çarəsiz imiş.
Allahdan da beləcə
Sən kömək umdun, ana.
Kərəmini görməyib,
Ağrılara dözməyib
Gözünü yumdun, ana!
Dərd əlacsız olanda,
Hamının gücü birmiş.
Ölüm haqq olan yerdə,
Allah da gücsüz imiş.
Heç kim əbədi deyil,

Hamı gəldi-gedərdi.
Bu dünyanın yolu da,
Bir ömürlük qədərdi.
Ömrün əcəl səmti var:
İnsan doğulan gündən,
Üzü o səmtə gedir.
Bu həyat meydanını
Hamı bir gün tərk edir.
Nə şah bilir, nə nökər,
Fərq bilməyən dünyadı.
Süleymana da vəfa
Eyləməyən dünyadı.
Müvəqqətilik onda
Bir əbədi qaydadı...
Yaxasından dördəlli,
Yapışıb qalmaq olmur.
Taleyin əcəlindən,
Hökmündən qaçmaq olmur.
Bu əzəli qaydadan,
Bu vəfasız dünyadan
Ana, baş açmaq olmur...
Qoynunda keçib mənim,
Baharım, qışım, ana.
Bu amansız hökm ilə,
Necə barışım, ana.
İndi səndən əbədi,
Necə ayrılım, ana!
Qovuşdun min illərin,
Axirət dünyasına.
O dünyanın əbədi
Sakini oldun, ana.
Bu dünyada könlünü

Bağlamışdın Allaha.
Axirət dünyanda da,
Allahın çatsın dada.
Allah səbrini versin,
Torpağın ömrü qədər
Bir ömrün vardır daha!

**ANAM, HEY...**

Bu vaxtsız gedişindən,
Vaxtsız həyatım soldu.
Dünyanın nəhs işindən,
Gözlərim yaşla doldu.
Vaxtsız solan canım, hey...
Anam, hey!

Nəfəsinlə böyüyən,
Güllərin həşəm oldu.
Adını andıqca mən,
Kövrəlmək peşəm oldu.
İtən adım-sanım, hey...
Anam, hey!

Nə ağırmış səfərin,
Nə ağırmış sükutun.
Elə bil ki, yol gedir,-
Çiynimdədir tabutun.
Evindən olanım, hey...
Anam, hey!

Daha xoş günüm getdi,
Toyum-düyünüm getdi.

Ürəyimdən təpərim,
Canımdan gücüm getdi,
Getdi güzəranım, hey...
Anam, hey!

Sinəmiz dağlı qaldı,
Qapımız bağlı qaldı.
Neçə qardaş-bacının,
Dilində ağı qaldı.
Dərd olub qalanım, hey...
Anam, hey!

* * *

Bu son mənzilinə gəldim baş əyəm,
Bu son mənzilinə sirdaşın mənəm.
Mən idim bəlkə də güvəndiyin dağ,
İndi ömrünə qar yağmışın mənəm.

Bu qəm dünyasına, ana, köçüncə,
Sıxır hicran məni öz istəyincə.
Mənəm saçları ağ yaşından öncə,
Əlləri qoynunda qalmışın mənəm.

Sənli ağrılarla keçir ömür-gün,
Çətin yoxluğundan gözlərim gülsün...
Daşdan istəməzdim baş daşın olsun,
Çünki qəbrin üstə baş daşın mənəm.

## QIRXINCI GÜN

Qəbrinin üstünə gəlmişəm, ana,
Bu da ağır dərdin qırxıncı günü.
Sən köçdüyün gündən bilmişəm, ana,
Anasız bir ömrün nə olduğunu.

Göyün buludu da ağlar halıma,
Sinəm para-para, qəlb didim-didim.
Ana, sənsizliyim sığmır ağlıma,
Ana, sənsizliyi necə dərk edim?

Dəyişib gözümdə aləm büsbütün,
Köksümdə qəmindən özgə duyğu yox.
Qırx gündür evindən uzaq düşdüyün,
Qırx gündür evində qəlb xoşluğu yox.

Əcəlin tez gəldi öz vədəsindən,
Taleyin insafı yoxmuş bir qırıq.
...Ürəyimin qəhər göynərtisindən,
Səsimi içimdə boğur hıçqırıq.

Bu dərd gözlərimin yaşını içib,
Bu dərd bürüyübdür canımı mənim.
Qırx gündür ağzımın dadı da qaçıb,
Oyadın qəbirdən anamı mənim.

Daha gözlərimin qurumaz nəmi,
Anasız kimsənin ağır qəmi var.
Anam, sən köçəli, məzarın kimi,
Atamın hüznlü bir görkəmi var.

Toxdamaq istərəm hərdən özüm də, -
Ki yerin gözümdən nəm götürməsin.
O hansı insandır bu qəm günümdə,
Baxıb üz-gözümə köks ötürməsin?

Fəğandır içimdə boğulan səs də,
Sinəmdə səngiməz qəm odun qalıb.
İndi ömrün kimi məzarın üstə,
Könlü viran olan Elşadın qalıb.

Qəbrinin üstünə gəlmişəm, ana,
Bu da sənsizliyin qırxıncı günü.
Sən köçdüyün gündən, bilmişəm, ana,
Anasız bir ömrün nə olduğunu.

## BACIM NAZİMƏYƏ

Ağırmış anasızlıq dərdi,
Qəmim çox, bacım, səbrim az.
Yanağımda zülüm yaşı,
Qurumaz, bacım,
qurumaz.

Ürəyim qəm çəkmədə,
Qəhər sinəmi sökmədə...
Gözlərim yaş tökmədə,
Yorulmaz, bacım,
yorulmaz.

Sevincdən uzaq ürəyim,
Kədərdən yumşaq ürəyim,

Anasız uşaq ürəyim,
Ovunmaz, bacım,
                    ovunmaz.

Qəm yolum üzü axşama,
Qəlb dönər yanar şama.
Qardaş hey deyər oxşama,
Toxtamaz, bacım,
                    toxtamaz.

Bizdən keçməliymiş bu qəm,
Qüssədir ötən anımız.
Ömrümüzdən nə tez keçdi,
Anamız, bacım,
                    anamız!

Ağırmış anasızlıq zülmü,
Qəmim çox, bacım, səbrim az.
Daha bu uşaq ürəyim,
Ovunmaz, bacım,
                    ovunmaz

* * *

Belə ömür kimə gərək, -
Əzablı-qovğalı, dünya?
Səndən yarıyan olubmu, -
Cavanlı-qocalı, dünya?

Kimə qəndsən, kimə zəhər,
Kimə dərdsən, kimə qəhər.
Ömür sürən var birtəhər, -
Ağrılı-acılı, dünya

Dərd payın çatdı bizə də,
Tab hanı bağrım dözə də...
Son nəfəsdə son sözə də,
Vermədin macalı, dünya.

Anasız günüm xoş olmaz,
Daha canımda can qalmaz.
Torpaq da heç bağışlamaz,
Bu vaxtsız əcəli, dünya!

## NİYƏ SOYUQ OLDUN, ATA OCAĞI

Niyə soyuq oldun, ata ocağı,
Niyə azalmada mehrin, ülfətin?
Yoxsa yaddaşından mən silinmişəm,
O ocaqda qalan kiçik külfətin?

Niyə soyuq oldun, ata ocağı,
Niyə görkəmindən qəm oxunur, qəm?
Onsuz da anasız göynəyir sinəm,
Onsuz da anasız qəm içindəyəm.

Niyə soyuq oldun, ata ocağı,
Niyə doqqazında ot-alaq bitib?
Anam bu dünyadan köçəli yoxsa, -
Bu həyət-bacanın sahmanı itib.

O buz quyunun da quruyub gözü,
Suyu da əvvəlki suya oxşamır.
Bu evin anasız qəmdir gündüzü,
Bu evin qəm ilə düşür axşamı.

Niyə qəmli oldun, tələbə ömrüm,
Necə uyuşaram anasız kəndə?
Anam ötürmüşdü məni şəhərə,
Bəs kim qarşılasın geri dönəndə?!

Gəzdim doğma yurdun yan-yörəsiylə,
Gəzdim ki, başımın azalsın dərdi.
Gördüm ki, bacımın nəm gözləriylə,
Sonbeşik qardaşın əhvalı birdi.

Kimsəsiz görünər şər qarışanda,
Çoxdandır bu evdən sovuşub şadlıq.
Daha gözə dəymir qonum-qonşu da,
Düşüb aralığa bir soyuq yadlıq.

Sona yetişmədə tələbə ömrüm,
Lakin ürəyimdə min kədər dağı.
Mənim ki, qayıtmaq istəyim vardı,
Niyə soyuq oldun, ata ocağı?
Niyə soyuq oldun, ata ocağı?!

## EVİM, QAPIN BAĞLI QALIB

Bu gününü görməyəydim,
Evim, qapın bağlı qalıb.
Hanı qarşıma çıxanın? -
Evim, qapın bağlı qalıb.

Bu qapıya gələn yoxmu,
Qohum-qardaş, gələn yoxmu.
Heç dərdini bilən yoxmu,
Evim, qapın bağlı qalıb.

Kandarında yavaş-yavaş,
Bunca dönüb olaydım daş.
Hanı bəs sonbeşik qardaş? -
Evim, qapın bağlı qalıb.

Həyət-bacan qəm oyadan,
Yad olub, çıxdınmı yaddan.
Anam köçəli dünyadan,
Evim, qapın bağlı qalıb.

Bu ocaqdan kimlər bezdi,
Baxıram hər yan səssizdi,
Məgər bu yurd kimsəsizdi? -
Evim, qapın bağlı qalıb.

Nə çox çəkdi ayrılıq, ah...
Qəhər məni boğur, Allah.
Qayıdaram bu gün-sabah,
Evim, qapın bağlı qalıb.
Anam, qapın bağlı qalıb!

## DÜNYA, QAYTAR ANAMI

Anamı aldın əlimdən,
Gücümü aldın əlimdən,
Günümü aldın əlimdən,
Dünya, qaytar anamı.

Dilimin sözün apardın,
Odumun közün apardın,

Ömrümün özün apardın,
Dünya, qaytar anamı.

Bu zülümün sonu yoxmuş,
Qəmin sevinc yönü yoxmuş.
Anasızın günü yoxmuş,
Dünya, qaytar anamı.

Çətində həyanım getdi.
Candan şirin canım getdi.
Günüm-güzəranım getdi,
Dünya, qaytar anamı.

Çəkməyə çoxdu dərd payım,
Dərd içində ilim, ayım...
Anasız necə yaşayım?
Dünya, qaytar anamı,
Dünya, qaytar anamı!

## MƏNƏ VİDA DEDİN

Mənə vida dedin bir payız günü,
Səfərin dünyadan çox erkən oldu, -
Oğul qayğısını, gün xoşluğunu,
Hələ təzə-təzə görürkən oldu.

Bircə dərdin qaldı mənə yadigar,
Ömürdən bunsuz da bəlkə bezərdim.
Dərdin də gün gəlib köhnəlməyi var,
Mənimsə həmişə təzədi dərdim.

Mən səni itirdim cavan çağımdan,
Mən səni tapşırdım yerin qoynuna.
Hər işə ürəklə yanaşdığımdan,
Dərdi də ürəklə çəkirəm, ana.

Doğmalar qeydimə qalsa da, ana,
Qədir-qiymətinin yerini vermir.
Min qayğı çəkənim olsa da, ana,
Sənin zəhmətinin yerini vermir.

Hamıyla qaynayıb-qarışa bildim,
Görünür bunsuz da yaşamaq olmur.
Bütün dərdlərimlə barışa bildim,
Təkcə yoxluğunla barışmaq olmur.

**EPİLOQ**

Deyirlər özünə qayıdır hər şey,
Çox da insan ölür, təbiət solur.
Bu inama görə, hər doğulan da,
Kiminsə ömrünün təkrarı olur.

Yəqin bu inamda bir həqiqət var,
Anama oxşayır körpəm də üzdən,
Balamın üzündə anamın ruhu,
Anamı evimdə böyüdürəm mən...

*Aprel, 1993*

# KİTABIN İÇİNDƏKİLƏR

*Şeirin dərd-qəm qatarı (Cəmil Əlibəyov) ......................3*

**HAQQ SƏNİNDİR, AZƏRBAYCAN**

Kəfənim boynumda yol gedirəm mən ........................12
Tanrı pıçıltısı ..............................................................13
Könlüm başqa yol tanımır...........................................14
Şeir yolu ......................................................................15
Tanrım, tövbəmi qəbul et ...........................................15
Görən dərviş deyir mənə ............................................18
Hakimiyyət marafonu .................................................20
Namərdlər ...................................................................22
Atam haqqında bir-iki söz...........................................22
Kişilərə... .....................................................................23
Qapımın iti ..................................................................24
Şair qələmi ..................................................................25
İlahi məqamdı şeir ......................................................26
Dərd şairin gərəyidi ....................................................27
Ustad ...........................................................................28
Polkovnik Şaberə ........................................................29
Şair, zaman və zindan.................................................31
Şəkər Aslana ...............................................................32
Boz axın ......................................................................33
Yadların doğmalığı, doğmaların yadlığı ......................35
Nəslimə .......................................................................36
Əsil dost ......................................................................36

Səhərə tələsən qatar ....................................................38
Bir nazir müavininə ....................................................39
Səbri çatmayan uşaq ....................................................40
Bu kişinin ....................................................42
Şeytanı da gördük axır ....................................................43
Şairlik azarı ....................................................44
Tarix ....................................................45
İbrət heykəli ....................................................46
Bu dünya ....................................................47
Neynirdim axı ....................................................48
İstehzalı şeir ....................................................49
Hamı bir ucdan aldadır ....................................................51
Elə, deyəsən, özüməm ....................................................52
İkinci Salyeri ....................................................53
Hörmət, qayğı ....................................................54

**MƏNİ ÖLÜMÜMDƏN SONRA SEVƏRLƏR**

Bir dövrdəyəm ki,.. ....................................................56
Hələ ki, diridir ....................................................57
Məni ölümümdən sonra sevərlər ....................................................57
Vəsiyyət ....................................................60
Baba Xəliloğluna ....................................................62
İşıq ucu ....................................................63
Deyən doğru demir, yaxud məddah şairlərə ....................................................64
"Çılpaq kral" ....................................................66
Baş ağrısı ....................................................68
Vəd etməyə nə var ki ....................................................68
Balaca Turanın duası ....................................................69
Məndə bir ümid var ....................................................70

Uzunçulara qısa məsləhət ..........................................71
Plagiatla söhbət ..........................................................71
Yalançı ........................................................................72
Səbir ............................................................................72
Mənim sevgim............................................................72
Ümidsizlik ...................................................................73
Nənəmin etibarı...........................................................73
Əsgərlikdən qayıdanda ...............................................74
Bir parça günəş ...........................................................75
Həyat, kədərin çoxalıb ...............................................76
Anamın məzarı önündə...............................................77
Anasız ömrün ağıları...................................................78
Dərmansız dərd ...........................................................80
Fələstin qaçqınlarına ..................................................81
"Mən torpaq adamı idim" ...........................................82
Ruh bədənə qayıdantək ..............................................83
Hara belə, qaraçılar.....................................................84
Ünvansız yaşamağa nə var .........................................87
Ürəyimi çox incitdim .................................................88

**SEVDALI BİR YAZ GÜNÜ**

Yaz ki, gəldi ..............................................................90
Vətən sevgisi...............................................................91
Sevdalı bir yaz günü ...................................................92
Yaz günəşi...................................................................93
Qısqanc bülbül............................................................93
Elə yerdə yaşayıram ...................................................94
Qoşma .........................................................................95
Torpağın alqışı............................................................95

Dağ yolundan lövhə ....................................................96
Meşədə ....................................................................96
Dəmirağac ................................................................97
Qara kitaba yazılsın.....................................................98
Qar etüdü..................................................................99
Neft daşları ..............................................................100
Xəzər balıqçılarına ....................................................101
Son yarpaq...............................................................102

**ÜZÜN QİBLƏGAHDI MƏNƏ**

Cüt qaraltı ..............................................................104
İlahi pıçıltılar............................................................405
Sevda ......................................................................106
Qara gözlərin yiyəsi ...................................................107
Qayıt .......................................................................108
Ad günüm ................................................................109
Sən gedəli ................................................................110
Tanrı duası................................................................112
Gözlərimə inan .........................................................112
Etiraf .......................................................................113
Könül, niyə qəmli oldun.............................................114
Yox elə bir təsəlli də .................................................115
Sən gəlin köçürdün....................................................116
Üzün qibləgahdı mənə ...............................................117
Sevgi çəkişmələri .......................................................118
Səni qınamıram .........................................................119
Ağrısı qalacaq ...........................................................119
Sevməyindən qalmır ..................................................120
İlk sevgi....................................................................120

Bilmədim ....................................................................121
Ayrılıq .......................................................................121
Peşiman olmaram ......................................................122
"Büdrəyən atlar" ........................................................123
Bəyaz saçlı qadın ......................................................125
Vay halına ..................................................................125
Bezdirə bilsə ..............................................................126
Burax gedim, şəhərli qız............................................127
Bu sevda qurudacaq bizi ............................................128
Son görüş....................................................................129
Aramızdan bir çay axır ..............................................130
Soyuqluq ....................................................................131
Səni xatırladım ..........................................................132
Görüş-ayrılıq ..............................................................133
Bilsəm ki ....................................................................134
Yağışlı günün təkliyi..................................................135

**POEMALAR**

Qiymət........................................................................138
Yarımçıq ömür ..........................................................176

**S 49**

***Elşad Məhərrəm oğlu Səfərli***
***Səhərə tələsən qatar***
***(Azərbaycan dilində)***
***Bakı. Gənclik. 2009***

*Redaktor:* ***Samir Sədaqətoğlu***
*Korrektor:* ***Mülayim Vəliyeva***
*Üz qabığının dizaynı:* ***Elşən Tarverdiyev***

*Yığılmağa verilib: 10.11.2009*
*Çapa imzalanmışdır: 2009-12-07*
*Kağız formatı: 84x108 1/32. Fiziki çap vərəqi: 12,25.*
*Tirajı: 300. Sifariş: 78*

*Kitab hazır depozitivlərdən «3 saylı Bakı mətbəəsi» ASC-də ofset üsulu ilə çap edilmişdir.*

*Müəllif bu və bir neçə kitabının çap edilməsində*
*əvəzsiz xidmətlər göstərən, maddi və mənavi*
*yardımını əsirgəməyən,*
*Azərbaycan poliqrafiyasının ünlü simalarından*
*olan*
***Şəddad CƏFƏROVA***
*dərin təşəkkürünü bildirir.*